

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Bakı və İrəvanın sülhə gedən çətin yolu: Qərb niyə əngəllər yaradır?



8

SƏS

№ 002 (6927)

9 yanvar 2024-cü il.
Qiymətı 60 qəpik

# Azərbaycanda hökm sürən demokratik birgəyaşayış mühiti




2

*İlham Əliyev: "Humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin təbliği və təşviqini dövlət siyasətimizin prioritet istiqamətlərindən biri hesab edirik"*

# ABŞ-ın Azərbaycana qarşı NÖVBƏTİ QƏRƏZİ











4

## YAP Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü Mübariz Qurbanlının 70 illik yubileyi münasibətilə görüş keçirilib



3

## Tarixin dəhşətli olayları: Sarıqamış hərəkatı



9

## Bakıda kurort turizminin inkişafı üçün ərazi ayrılıb



16

## Misirdə 2 minillik məzarlar aşkarlanıb



16

## Tik-Tok bağlanacaq?



11




# Azərbaycanda hökm sürən demokratik birgəyaşayış mühiti

## *İlham Əliyev: "Humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin təbliği və təşviqini dövlət siyasətimizin prioritet istiqamətlərindən biri hesab edirik"*

***"Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsubları yüz illərdir ki, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar.***

Biz cəmiyyətimizin üstün keyfiyyətlərindən olan etnik-dini müxtəlifliyi dövlətçiliyimizin misilsiz nailiyyəti kimi qiymətləndirir, ölkəmizdə hökm sürən demokratik birgəyaşayış mühitinin qorunub saxlanılmasını, humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin təbliği və təşviqini dövlət siyasətimizin prioritet istiqamətlərindən biri hesab edirik." Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını Milad bayramı münasibətilə təbrikində bildirib. Bildiyimiz kimi, Azərbaycanın pravoslav xristian icması Milad bayramını hər il təntənə ilə qeyd edir. Milad bayramının yeniliyin, paklığın, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi olduğunu bildirən Cənab Prezident bu müqəddəs gün münasibətilə bayram təbriklərini yetirərək, ailələrinə xoşbəxtlik, süfrələrinə bol ruzi-bərəkət arzulayıb: "Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram."Azərbaycan bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir. Dünya dövlətləri Azərbaycanın bu sahədəki təcrübəsinə böyük maraq götərirlər. Belə ki, Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir və təsadüfü deyil ki, Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar.

### BÜTÜN MİLLİ AZLIQLARIN MƏDƏNİ KİMLİYİNƏ TƏMİNAT VERİLİB

Əlbəttə ki, Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Bütün dünya ölkələri bu mühitə maraq göstərməsi də məhz mövcud mühitdən qaynaqlanır. Xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir.

### DİNLƏRARASI VƏ ÇOXMƏDƏNİYYƏTLİ HARMONİYANIN İNKİŞAFINA TƏKAN

Dövlət başçısı "Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz nümunəvi dövlət-din münasibətlərinin yaratdığı geniş imkanlardan yararlanaraq özünəməxsus adət-ənənələri, dil və mədəniyyəti yaşadır, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi həyatımızın bütün sahələrində digər etiqadların nümayəndələri ilə birlikdə yaxından iştirak edirlər." - deyə bildirib.Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Milli-mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq sosial-iqtisadi inkişaf və dövlətin öz siyasi xəttinə güvənməsi davamlı inkişafın və uğurların əsas amilləridir. Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir sülh, qardaşlıq, qarşılıqlı hörmət şəraitində yaşayır. Burada etnik və dini qruplar arasında hər zaman güclü əlaqələr olub.Azərbaycanda bütün etnik və dini qruplar öz bayramlarını uğurla qeyd edirlər. Pravoslav xristian icmasının Milad bayramı Müqəddəs gecədən başlayır. Belə ki, yanvarın 7-də pravoslavlar ən vacib xristian bayramlarından birini – Milad bayramını qeyd ediblər. Milad bayramı bir gün əvvəl, yanvarın 6-dan başlayır. Pravoslavlara görə bu, 40 günlük orucun son günü və Miladın qeyd edilməsi üçün daha möhkəm hazırlıq vaxtıdır. Axşam, gün batandan sonra bütün ailə həvarilərin sayına uyğun olaraq 12 yağsız yeməyin olduğu masa arxasında yığışır. Yeməklərin heç biri toxunulmamış qalmamalıdır: hər birindən ən azından bir az dadmaq lazımdır. Masada bir şamın - canlı alovun yanması məsləhətdir. Müqəddəs axşam yeməyinin əsas xörəyi kutyadır. O, ənənəvi olaraq buğdadan hazırlanır, lakin digər dənli bitkilərdən də istifadə edilə bilər. yanvarın 7-də bütün məhdudiyyətlər aradan qaldırılır və artıq əsl bayram ziyafəti təşkil etmək olar.Deyilənlərə görə, Milad bayramında evdən darçın və vanil ətri gəlməlidir. Yəni məxsusi yemək olmadan bu bayramı təsəvvür etmək mümkün deyil. Qədim zamanlarda daha bir ənənə olub: bayram günlərində yalnız təzə libaslar geyinirdilər. Məhz bu gecədə su, təbiətin özü və hava sanki sehrlə dolaraq bütün arzuların həyata keçməsinə kömək edir. Milad ənənələrinə görə, bayram günlərində insanlar vaxtlarını şən keçirməli, qəm-qüssədən uzaq olmalı, həyatdan zövq almalıdırlar.Azərbaycanın pravoslav xristian icması da Milad bayramını təntənə ilə qeyd edir. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz ölkəmizin ərazisində yaranıb. Müxtəlif dinlərin nümayəndələri əsrlərboyu torpağımızda dinc yanaşı yaşayır, öz adət-ənənələrini sərbəst şəkildə icra edirlər. Azərbaycanda heç vaxt milli və irqi zəmində ayrı-seçkilik, dini dözümsüzlük olmayıb. Digər konfessiyaların nümayəndələri kimi, xristianlar da cəmiyyətimizin tamhüquqlu üzvüdürlər. Ölkədə bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir.Həqiqətən də. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

### TOLERANTLIQ MÜHİTİ DÖVLƏT-DİN KONSEPSİYASINA UYĞUN MÖHKƏMLƏNİB

Çoxəsrlik tolerantlıq ənənələrinin mövcud olduğu cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin, dini-mənəvi irsin və multikultural dəyərlərin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi həyata keçirilən dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır". Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, ən çətin anlarda belə bunu əməli fəaliyyətdə sübut ediblər. Bu gün ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşaması fikirlərimizi əsaslandırır.

***ZÜMRÜD BAYRAMOVA***

# Ali qonağın şərəfinə rəsmi ziyafət



Dünən Azərbaycan Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın şərəfinə rəsmi ziyafət verilib.



# YAP Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü Mübariz Qurbanlının 70 illik yubileyi münasibətilə görüş keçirilib

***Yanvarın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının 70 illik yubileyi münasibətilə görüş keçirilib. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.***





Tahir Budaqov bildirib ki, partiya həyatında və dövlət qulluğunda uzun illər səmərəli fəaliyyət göstərən Mübariz Qurbanlı hər zaman fəal mövqeyi ilə seçilib. O diqqətə çatdırıb ki, Mübariz Qurbanlı 1999-cu ildən bu günədək Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, 1999-2021 illərdə partiyanın İcra katibinin müavini, I, II, III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Bu gün isə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri və YAP İdarə Heyətinin üzvü kimi fəaliyyətini müvəffəqiyyətlə davam etdirir: "Sizin milli-mənəvi dəyərlərin və dövlətçilik maraqlarının qorunmasına xidmət edən fəaliyyətiniz hər zaman yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2014-cü ildə "Şöhrət", dünən isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilməyiniz əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir".



Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini bildirib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə əməyinə verilən yüksək qiymətə görə dərin minnətdarlığını ifadə edən Mübariz Qurbanlı bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini diqqətə çatdırıb.

# "Cənubi Qafqazda tezliklə sülh olacaqmı?"

## *İsveçrə Teleradiosunda Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları və yaxın gələcəkdə regionda əmin-amanlığın tam bərqərar edilməsi imkanlarına dair geniş reportaj yayımlanıb*

***İsveçrə Teleradiosunun (SRF) əsas xəbər buraxılışında Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları və yaxın gələcəkdə regionda əmin-amanlığın tam bərqərar edilməsi imkanlarına dair geniş reportaj yayımlanıb. "Cənubi Qafqazda tezliklə sülh olacaqmı?" sərlövhəli reportajda 30 il davam etmiş münaqişədən sonra 2024-cü ildə Cənubi Qafqazda sülhün və əmin-amanlığın bərpa olunmasına ümidlə baxıldığı vurğulanıb.***

Bildirilib ki, ötən ilin sentyabrında Azərbaycanın Qarabağda suverenliyini tam bərpa etməsindən sonra Azərbaycan və Ermənistan arasında aparılan danışıqlarda aşkar şəkildə yaxınlaşma müşahidə olunur.

Reportajın əvvəlində böyük tikinti meydançasını xatırladan Füzuli şəhərindən bəhs olunub. Qeyd edilib ki, işğal dövründə xarabalığa çevrilmiş Füzulidə bu gün həyat yenidən qaynamaqdadır. Birinci Qarabağ müharibəsi zamanı Füzulini işğal edən və bütün azərbaycanlıları dədə-baba torpaqlarından qovan Ermənistan üç il əvvəl baş vermiş və böyük itkilər verdiyi müharibə nəticəsində bu ərazilərdən geri çəkilməli oldu.

Reportajda azad olunan ərazilərdə quruculuq işlərini çətinləşdirən amillər arasında mina problemi xüsusi qeyd edilib. Bildirilib ki, mina problemi bərpa və quruculuq işlərini çətinləşdirsə də, indiyədək Füzulinin 30 faizi minalardan təmizlənib və minatəmizləmə əməliyyatları fasiləsiz davam etdirilir. Azərbaycan hökuməti qısa müddətdə bu şəhərdə minədək mənzil inşa etdirib və hər ay öz yurdlarına qayıdan azərbaycanlı ailələrə yeni mənzillərin açarları təqdim olunur. Bununla da Azərbaycanın verdiyi mesaj tam aydındır: Ermənistan nə Füzuli, nə də Qarabağın başqa ərazilərinə bir daha iddia edə bilməz. Eyni zamanda, bildirilib ki, Qarabağın erməniəsilli əhalisi Azərbaycan vətəndaşlığını qəbul edərək həmin ərazilərə qayıdıb yaşaya bilər.

SRF-in reportajında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu televiziyaya müsahibəsində Azərbaycanın istəyinin bütün Cənubi Qafqazın mənzərəsini dəyişmək olması barədə fikri diqqətə çatdırılıb: "Bu regionun adı gələcəkdə müharibə və münaqişələrlə deyil, şanslar, işgüzar əlaqələr, inkişaf və rifahla bağlı hallanmalıdır".

Bundan başqa, reportajda qeyd olunub ki, Bakıda Azərbaycan Prezidentinin Administrasiyasında yüksək özünəinam hissi hökm sürür, çünki Xəzər dənizi sahilində yerləşən bu metropol bütün regionun iqtisadi mühərrikidir. Zəngin neft və qaz ehtiyatlarına malik Azərbaycan Rusiyaya qarşı tətbiq edilən sanksiyalardan sonra Avropa üçün vazkeçilməz tərəfdaşa çevrilib.




Reportajda Prezident İlham Əliyevin ötən il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmasını əks etdirən kadrlara da yer verilib. Həmçinin Azərbaycanın güclü müttəfiqlərinin olduğu vurğulanıb, bu baxımdan ölkəmizi daim hərbi və geosiyasi müstəvilərdə dəstəkləyən Türkiyə xüsusi qeyd edilib.

# Medianın İnkişafı Agentliyi və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti birgə açıqlama yayıb




***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti birgə açıqlama yayıb. Açıqlamada deyilir: "Bir sıra sosial şəbəkə seqmentlərində Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədlikləri qeydə alınmış şəxslərlə bağlı saxta hesablar yaradılır və onların adından həqiqətə uyğun olmayan məlumatlar yayılır.***

Seçkilər ərəfəsində bu tipli fəaliyyət məqsədyönlü şəkildə ictimai rəyi çaşdırmağa, namizədlərin reputasiyasını ləkələməyə yönəlmiş addımdır. İctimaiyyəti belə yalan və təxribat xarakterli paylaşımlara inanmamağa, yalnız prezidentliyə namizədliyi qeydə alınmış şəxslərin rəsmi açıqlamalarını və onların sosial media hesablarında yerləşdirilmiş məlumatları əsas götürməyə çağırırıq.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyaların təsirinə düşməmək üçün sayıq olmağa səsləyirik. Qeyd olunan saxta hesabların mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir".

# ABŞ-ın Azərbaycana qarşı NÖVBƏTİ QƏRƏZİ

***ABŞ tərəfindən Azərbaycana qarşı müxtəlif istiqamətlərdə əsassız olaraq, həqiqətə uyğun olmayan şəkildə iddialar irəli sürüldüyünün, beləliklə də, qərəzli mövqe sərgiləndiyinin dəfələrlə şahidi olmuşuq. Onun da şahidi olmuşuq ki, Amerika Birləşmiş Ştatlarının rəsmi Bakıya qarşı qərəzli mövqeyinin, Vaşinqtonun ölkəmizə qarşı ədalətsiz yanaşmasının kökündə məhz erməni lobbisinin Azərbaycan əleyhinə həmin ölkədəki fəaliyyəti dayanır. Görürük ki, ABŞ məhz erməni lobbisinin təsiri altındadır və rəsmi Vaşinqtonun ölkəmizə qarşı mövqeyində həmin təsirlər yenə də özünü göstərməkdədir.***

Dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı ABŞ Dövlət Departamentinin illik hesabatının Azərbaycana aid hissəsinin bu dəfə də əsassız, reallıqla heç bir əlaqəsi olmayan və qərəzli iddialardan ibarət olması təəssüf və eləcə də təəccüb doğurmaya bilməz. Əvvəla ona görə ki, Azərbaycan bütün dünya üçün dini və milli tolerantlıq nümunəsi olan ölkədir və ölkəmizə qarşı belə iddiaların heç bir əsası da yoxdur, bu iddialar həqiqətə də uyğun deyil. Digər tərəfdən də ona görə təəssüf və təəccüb doğurur ki, dini və milli tolerantlıqla bağlı ölkəmizə qarşı iddiaları olan ölkənin, yəni, Amerikanın özündə hansı ayrıseçkiliklərin hökm sürdüyü, qaradərililərə qarşı dözümsüzlük nümayiş etdirildiyi heç kim üçün sirr deyil və bunu bütün dünya ictimaiyyəti çox yaxşı bilirsə, hansı üzlə bütün dünya üçün dini və milli tolerantlıq nümunəsi olan ölkəyə, Azərbaycana qarşı belə iddialar irəli sürülür? Həm də axı ABŞ kimi böyük bir ölkənin erməni lobbisinin təsiri altında olması, ermənilər tərəfindən tərtib olunan hesabata istinad edərək, Azərbaycana qarşı iddialar irəli sürməsi də təəssüf və təəccüb doğurmaya bilməz. Çünki ABŞ Dövlət Departamentinin illik hesabatını tərtib edən ermənilər də, elə amerikalılar da yaxşı bilirlər ki, monoetnik ölkə, dini və milli dözümsüzlük nümayiş etdirilən, hətta etnik təmizləmə siyasəti yürüdən dövlət Ermənistandır. Belə olan halda, ermənilərin tərtib etdiyi hesabata istinad edən ABŞ, hansı qərəzlə Azərbaycana yanaşdığının mütləq fərqində olmalıdır.

Amerikalılar bir çox məqamların, ələlxüsus da dini və milli tolerantlıqla bağlı bir sıra məsələlərin artıq çoxdan fərqində olmalı idilər. Fərqində olmalı idilər ki, Azərbaycan təkcə indiki dövrdə yox, tarixən dini azadlığın hökm sürdüyü diyar olub. Azərbaycan xalqının dini və milli tolerantlığına şübhə belə etməyin nə dərəcədə qərəzli olduğunun ABŞ geç də olsa, fərqində olsun. Fərqində olsun ki, müxtəlif millətlərin nümayəndələrinin və müxtəlif dini inanclara, adət-ənənələrə sahib olan insanların qarşılıqlı anlaşma və qarşılıqlı hörmət şəraitində yaşaması Azərbaycan xalqı üçün tarix boyu bəşəri dəyər hesab olunub və xalqımızın toleranlıq ənənələri məhz bu baxımdan bütün dünyaya örnək, nümunədir. Hələ lap qədim zamanlardan bu günə qədər müxtəlif mədəniyyətlərin nümayəndələrinin, fərqli dini inanclara, adət-ənənələrə, fərqli mədəniyyətlərə mənsub insanların yaşadığı coğrafiyada olan Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkə olaraq tanınır və bu, heç də təsadüfi deyil. Azərbaycan ərazilərində müxtəlif dövrlərdə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar nəinki yayıla bilib, hətta biri-birinə qarşı hörmətlə yanaşılmasına görə nümunə olaraq qəbul olunmaqdadır. Fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın tarixən belə ənənələrinin olması bugünkü günə də siraət edib və əlbəttə ki, təsirsiz də ötüşməyib. Dünyada baş verən müharibələrin motivində məhz etnik-dini anlaşılmazlıqlar olduğu halda, katalizator da elə dini, milli dözümsüzlük olduğu halda, ölkəmizdə dini mənsubiyyətindən asılı olmayaraq kiməsə qarşı dözümsüzlük nümayiş etdirildiyi hələ bir dəfə də müşahidə edilməyib. Dünyanın ən inkişaf etmiş ölkələrində hətta eyni dinə, eyni adət-ənənələrə, eyni mədəniyyətə mənsub təriqətləri arasında çaxnaşmalar müşahidə edilsə də, bu günə qədər Azərbaycanda belə bir arzuolunmaz halla rastlaşmaq qətiyyən mümkün olmayıb. Hal-hazırda məhz etnik təmizləmə siyasətinə görə dünyanın 21 ölkəsində 12 milyonadək insan qaçqın və məcburi köçkün şəraitində yaşaması fonunda, Azərbaycana bu kimi mənfi halların heç birini şamil etmək mümkün deyil. Deməli, Azərbaycan dini və milli tolerantlıq baxımından da dünyaya nümunə olan ölkə hesab olunur.










Dini azadlıqla bağlı məsələlər Azərbaycanda müvafiq qanunvericilik çərçivəsində belə tənzimlənir. Azərbaycan Respublikası Konstitusiyasının vicdan azadlığı ilə bağlı müddəalarının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə əlaqədar qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların qeydiyyata alınması Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən müvəffəqiyyətlə həyata keçirilir və ölkəmizdə bütün dini icmalar bərabər hüquqlara malikdirlər. Məhz bu baxımda da cəsarətlə deyə bilərik ki, Azərbaycan dini və milli tolerantlıqda dünya dövlətlərinə uğurlu model, örnək, nümunədir. “Yüksək tolerantlıq yüksək mədəniyyətin təzahürüdür”, deyən Ulu Öndər Heydər Əliyev xalqımızın tolerantlıq ənənələrini hər zaman yüksək qiymətləndirib və onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın təminatçısı və himayəçisidir. Azərbaycan xalqı və dövlətimiz bu gün də sülhün, əmin-amanlığın, qarşılıqlı anlaşmanın tərəfdarıdır. Azərbaycan bu gün qalib ölkə olsa da, yenə də Ermənistana normal qonşuluq münasibətlərinin davam etdirilməsi, sülh şəraitində yaşamaq təklifini irəli sürür, sülh müqaviləsi bağlamaq təklifi ilə çıxış edir.

Maraqlıdır, bütün bu sadalananları ABŞ barəsində söyləmək mümkündürmü? Əlbəttə ki, mümkün deyil. Amerikanın necə təşəkkül tapdığını, yerli aboregen tayfalara qarşı hansı vəhşiliklər törədildiyini, ərazilərinin onların əllərindən alındığını və həmin ərazilərdə bir dövlət yaradıldığını tarixi faktlar olaraq, hamı qəbul edir. Hər kəs bilir ki, ABŞ heç də yerli hindilərin dövləti deyil və onların əllərindən alınan, özü də qırğınlar, vəhşiliklər, zor hesabına alınan ərazilərdə yaradılan dövlətdir. Məgər bütün bəşəriyyət bilmirmi ki, ABŞ hansı ərazilərdə və necə yaranıb? Bəlkə həmin ölkədə yerli əhalinin, aborigenlərin dini azadlığı o vaxtdan bu vaxta qədər qorunduğunun şahidi olan var? Tək-tük sayda qalan yerli əhali Amerikada öz dini inancını qoruya bilməyib, çünki buna imkan verilməyib. Heç bir aborigen Vaşinqtonda, Nyu-Yorkda və digər şəhərlərdə azad şəkildə öz dini inancına sahib çıxa bilməz və həmin şəhərlərin hansınınsa mərkəzində yerli əhaliyə imkan verilməz ki, öz dini ayinlərini keçirsin. Əksinə, ABŞ tərəfindən qaradərililərə qarşı indi də necə ayrıseçkilik edildiyi göz önündədir. ABŞ vətəndaşları sadəcə dərilərinin rənginə görə təqib olunur, döyülür, qəddarcasına öldürülür. Üstəlik, sonradan bu cinayətlərin üstü açılmır, ölüm hadisəsinə görə kiminsə adekvat cəza aldığını görmürük. Amerika tarixinin “qara səhifələrini” ifşa edən Martin Lüter Kinq hələ keçən əsrin 60-cı illərində özünün tolerantlıqla bağlı arzularını belə ifadə edirdi: “Ar¬zum budur ki, irqçiliyin dəhşətli dərəcə¬də yayıldığı, “məhv etmək” və “müdaxilə etmək” sözlərinin dildən düşmədiyi bu torpaqlarda bir gün ağdərili və qaradərili oğlan və qızlar əl-ələ verərək bacı-qar¬daş kimi gəzsinlər”. Ağdərililərin Amerikasında quldarlı¬ğa və irqçiliyə qarşı mübarizə aparan bu şəxs 1968-ci ildə məhz qaradərili olduğu üçün qətlə yetirilmişdi. Kinqin gerçəkləş¬məyən Amerika arzusundan 50 ildən çox vaxt keçir və bu gün də ABŞ-da rasizm çiçəklənmək¬dədir. Görünür, ABŞ-da ənənələr unudulmayıb və Vaşinqtonun dünyaya insan haqları dərsi vermək iddiasının əksinə olaraq, bu gün də ayrıseçkilik ciddi cəhdlə davam etdirilir.

2015-ci ilin yazında qaradərili gənc Mixael Broun ağdərili Darren Uilson tərəfindən vurula¬raq öldürülməsi, 2020-ci il avqustun 21-də Luiziana ştatında baş vermiş daha bir hadisə, 31 yaşlı afroamerikalı Treyford Peller polis tərəfindən saxlanılarkən, yəqin ki, aqibətinin yaxşı olmayacağını düşünərək qaçmağa cəhd etdiyi zaman amansız polislər tərəfindən güllələnərək öldürülməsi, Pellerinin bədəninə 10-a qədər atəş açılması, bundan sonra etiraz ak¬siyalarının ölkənin bütün ərazisinə yayılması, geniş iğtişaşların baş verməsi də dünya ictimaiyyətinin diqqətindən yayınmayıb. O da diqqətdən yayınmayıb ki, həmin ölkədə irqi diskriminasiya ilə bağlı ABŞ-ın Ədliyyə Nazirliyi də xüsusi bə¬yanatla çıxış edib. Unudulan da deyil ki, bəyanatda qaradərili bir gəncin ağdərili polis tərəfindən öldü¬rüldüyü Ferquson qəsəbəsində polisin qaradərili insanlara qarşı irqçi davranış nümayiş etdirdiyi də bildirilir. Nazirliyin he¬sabatında polisin qaradərili insanların hüquqlarını bir neçə dəfə pozduğu qeyd edilməsi özü də deyilənləri təsdiq edən məqamlardır. Amma görünən budur ki, özünü “demokratiya və azadlıq beşiyi” hesab edən, okeanın ortasında Azadlıq heykəli ucaldan bu ölkədə irqi və dini ayrı-seçkilik, bu xüsusda ikili stan¬dartlar hələ də hökm sürməkdədir. Görünən odur ki, dini və irqi ayrıseçkilik həm tarixi, həm də cari reallıq baxımından ABŞ üçün ən xarakterik məsələdir və hələ də bütün dünya ictimaiyyəti tərəfindən ən çox tənqidə məruz qalır. Belə olan halda, ABŞ Dövlət Departamentinin illik hesabatında hansı haqla, hansı üzlə, hansı əsasla Azərbaycana qarşı dini azadlıq kontekstində iddialar yer ala bilər? Ümumiyyətlə, bütün dünyada çoxsaylı müharibələri və qarşıdurmaları alovlandıran, milyonlarla insanın ölümünə, qaçqın vəziyyətinə düşməsinə, səfalət içində yaşamasına səbəb olan ABŞ, təkcə Azərbaycana deyil, hansısa bir ölkəyə qarşı hansısa iddiada, xüsusən də azadlıqların təmin olunması baxımından iddia ilə çıxış etmək haqqına mənəvi baxımdan da sahib deyil.

ABŞ Dövlət Departamentinin illik hesabatında ölkəmizə qarşı qərəzin yer almasında ən çox təəssüf doğuran həm də hesabatın ermənilir tərəfindən tərtib olunmasıdır. Həmin hesabatın Azərbaycanaya aid olan hissəsinin məhz dövlət komissiyasının rəhbəri Daniela Aşbaxyan olan ictimai xidmət tərəfindən hazırlanması barədə rəsmi Vaşinqton məlumatsız ola bilməz. Sual oluna bilər ki, Ermənistanın etnik təmizləmə apardığını, Azərbaycanın isə tolerant bir ölkə olduğunu bilə-bilə ABŞ Dövlət Departamentinin illik hesabatında ölkəmizə qarşı niyə belə iddialar yer alır? Bunun adı qərəzdən başqa nə ola bilər axı? Azərbaycan ərazilərini 30 il işğalda saxlayan Ermənistan tərəfi bir dəfə də olsa, hansısa xüsusda günahlandırılmadığı halda, ərazilərimiz işğaldan tamamilə təmizləndikdən sonra niyə ölkəmizə qarşı belə qərəz nümayiş etdirilir? Niyə yüz minlərlə azərbaycanlının öz doğma torpağından qovulması, 60 dan artıq məscidin, dini-mədəni obyektlərin darmadağım edilməsi nəzərə alınmır? Niyə bunlar nəzərə alınmadan məhz öz ərazilərində xristian kilsələrini qoruyan Azərbaycan hədəfə alınır? Bütün bunlar o demək deyilmi ki, ABŞ Dövlət Departamentinin illik hesabatındakı ölkəmizə qarşı əsassız iddialar həmin ölkənin qərəzindən xəbər verir? Bəli, ABŞ Dövlət Departamentinin illik hesabatının Azərbaycana aid hissəsinin bu dəfə əsassız, reallıqla heç bir əlaqəsi olmayan iddiaları sözün əsl mənasında, qərəzdir. ABŞ bu dəfə də ölkəmizə qarşı olan qərəzini bütün dünyaya nümayiş etdirdi və ədalətsizliyini ortaya qoydu. Məhz bu ədalətsizliyin və qərəzin fonunda da istər Azərbaycan hakimiyyəti, istərsə də xalqımız bu tipli cızma-qaraları qətiyyən ciddi hesab etmir və dövlətimizin bundan sonrakı dövrdə də öz siyasətini milli maraqlara uyğun davam etdirəcəyinə ölkə vətəndaşları əmindirlər.

***İnam Hacıyev***

***Dünya qütblərə bölünüb. Əlbəttə, biz coğrafi qütblərdən yox, siyasi qütblərdən danışırıq. İri dövlətlər idarəetmə üsulu olaraq qarşılıqlı anlaşma əvəzinə zoru seçdikləri andan müxtəlif düşərgələrdə mövqeləniblər. "Kim bizdən deyilsə, düşmənimizdir", prinsipi bütün səngərlərə aiddir və bir növ həyatda qalma instinktinə çevrilib. Ötən əsrimizin 90-cı illərinə kimi kapitalizm və sosializm düşərgələri iki qütblü dünyamızın siyasi xəritəsini cızmışdılar. Elə bir ölkə yox idi ki, bu qütblərdən birinin çətiri altında olmasın. Sosializm düşərgəsi dağıdıldı və Qərb dünyası yeni müstəqil ölkələri ələ keçirmək üçün hərəkətə keçdi. Əlbəttə, bir qütbdən digərinə keçid bir o qədər də asan olmadı. Bir ölkə bu yolu yumşaq, ağrısız keçsə də, əksər ölkələr münaqişə və müharibələrlə üzləşməli oldular. Səbəb, köhnə və yeni "ağalar"ın razılığa gələ bilməməsidir.***



# Çoxqütblü, yoxsa bipolyar?

2023-cü ildə isə mərkəzlərdən qaçan dünya ölkələri iki düşərgədə birləşdilər - ABŞ-ın rəhbərlik etdiyi kollektiv Qərb və Qərb dünya düzəninə alternativ olan Çin, Rusiya və digər ölkələrin qeyri-rəsmi ittifaqı. ABŞ-Çin-Rusiya üçbucağı çərçivəsində baş verən iki əks beynəlxalq münasibətlər modeli arasında baş verən toqquşma əsas güc mərkəzlərinin barışacağına ümidləri dəfn etdi. ABŞ və Çin arasında praqmatik qarşılıqlı əlaqə utopiyaya çevrildi. Eyni zamanda, Rusiya Federasiyası ilə ÇXR-in yaxınlaşması Ukrayna münaqişəsindən çıxış yolu tapmağa imkan vermədi. Pekin hərbi əməliyyatları dayandırmağa çağıran Ukrayna ilə bağlı sülh planını irəli sürdü, lakin Moskva Kiyev təslim olana qədər hərbi əməliyyatları davam etdirmək niyyətini təsdiqlədi.



## Həmişə qarşıdurma tonunda

Münasibətləri 2023-cü il ərzində dünyanı gərgin vəziyyətdə saxlayan iki super güc, ABŞ və Çin uzunmüddətli qarşıdurma dövrünə qədəm qoyub. Bu əsas nəticə iki ölkə arasında münasibətlərin Soyuq Müharibə - 2 şəraitində necə qurulacağına dair əks fikirləri saxlayaraq diplomatiyanın praqmatik əməkdaşlığa keçidə nail ola bilmədiyini ortaya qoyan son aylarda baş verən hadisələrdən irəli gəlir. 2022-ci ilin noyabrında ABŞ prezidenti Co Bayden və Çin prezidenti Si Cinping Balidə keçirilən G20 sammiti çərçivəsində iki ölkəni bir-birinə daha da yaxınlaşdırmaq üçün işə başlamaq barədə razılığa gəliblər. Lakin Yeni il tətillərindən sonra ABŞ və Çin arasındakı qarşıdurmada qısa möhlət öz yerini yeni eskalasiyaya verdi. Vəziyyəti ABŞ Hərbi Hava Qüvvələrinin Hava Hərəkətliliyi Komandanlığının rəhbəri Mayk Minihan şərh edərək Amerikanın Çinlə birbaşa toqquşmasını proqnozlaşdırdı. Tabeliyində olanlara göndərilən memorandumda qeyd olunub ki, Çin prezidenti Si Cinping fürsət pəncərəsindən Tayvana qarşı qəti addımlar atmaq üçün istifadə edə bilər. Çünki ABŞ diqqəti 2024-cü ildə keçiriləcək seçkilərə yönəldəcəyindən qarşı tərəf bunu başqa istiqamətə yönləndirə bilər.

Generalın proqnozu prezident Baydenin Pekinlə qarşıdurma səviyyəsini azaltmaq səylərini dəstəkləməyən ABŞ Konqresində tələb olunurdu. Düşünmək olar ki, bu, Bayden vəzifədə olarkən, zəiflik nümayiş etdirərkən baş verə bilər. Tayvanda və Hind-Sakit Okean regionunda Çinlə münaqişənin şahidi olma ehtimalımız çox yüksəkdir.

## Çin Tayvanda səs verir

Az sonra Vaşinqton və Pekin arasında barışıq daha güclü zərbə aldı. Söhbət ABŞ hava məkanında fevralın əvvəlində vurulan Çinin "casus şarının" hekayəsindən gedir. Nümayəndələr Palatası prezident Baydeni qərarsızlıqda, Pekini isə "beynəlxalq ictimaiyyəti aldatmaq" cəhdində ittiham edən qətnaməni təsdiqləyib. Belə ki, respublikaçılar hadisə ilə bağlı izahatlarını qənaətbəxş hesab edərək, Ağ Ev və Pentaqona təzyiqləri artırıblar.

Gözlənilməz fəsadlara baxmayaraq, Co Bayden respublikaçıların təzyiqinə boyun əymək fikrində olmadığını bildirib. Casus şarının hekayəsi, eləcə də Amerika hərbçilərinin xəbərdarlıqları Ağ Evi Pekinlə dialoqu bərpa etmək planlarından əl çəkməyə məcbur etmədi. ABŞ prezidentinin Konqresin hər iki palatasının üzvlərinə etdiyi illik "İttifaq vəziyyəti" çıxışı göstərici idi. Gözlənilənlərin əksinə, Co Bayden şar hekayəsini yalnız bir dəfə xatırladıb və Pekinlə münaqişə deyil, rəqabət arzusunu təsdiqləyib.

Daha sonra ilin sonuna qədər ABŞ-Çin münasibətlərinin əsas intriqası Co Bayden və Si Cinpinin ikinci dəfə görüşüb-görüşməyəcəyi və Vaşinqton və Pekinin normallaşma üçün yeni şans əldə edib-etməyəcəyi sualı oldu. Aylarla davam edən danışıqlardan və rəsmi səfərlərin mübadiləsindən sonra Bayden və Cinpinin komandaları noyabrın ortalarında San-Fransiskoda keçirilən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) 30-cu sammiti çərçivəsində görüşdülər. Ancaq ABŞ-Çin istiqamətində diplomatik səylər heç bir uğur gətirmədi. Danışıqlar nəticəsində liderlər yalnız iki ölkənin hərbçiləri arasında əlaqələrin bərpası və narkotiklərlə mübarizə üzrə işçi qrupunun yaradılması barədə razılığa gəldilər. Pekinin çoxsaylı sanksiyaları ləğv etmək və "idarə olunan rəqabət" modelindən imtina etmək çağırışları Vaşinqtonu strategiyasını dəyişməyə məcbur etməyib.

Ardı Səh. 6

ANALİTİK



# Çoxqütblü, yoxsa bipolyar?







Əvvəli-Səh-5

Çin lideri ilə əvvəlcə “konstruktiv və məhsuldar” kimi qiymətləndirdiyi danışıqlardan sonra Co Bayden qəfildən Si Cinpini “diktator” adlandırdı. Beləliklə, Baydenin bu sözləri Pekində yeni qəzəb doğurdu, Vaşinqtonun Pekinlə münasibətləri normallaşdırmaq səyləri puça çıxdı.

### Bütün mənfi cəhətlərə qarşı 1+1

ABŞ-Çin münasibətlərinin normallaşmasına nail olmaq üçün uğursuz cəhdlər Moskva ilə Pekin arasında gələcək yaxınlaşma üçün katalizator oldu. Rusiyanın Qərbdə “birbaşa təhlükə”, Çinin isə “strateji çağırış” elan edildiyini nəzərə alaraq, eyni geosiyasi qayığa düşmüş Pekin və Moskva təmasları intensivləşdirməyə məcbur oldular. Nəticədə, 2023-cü ildə Rusiya və Çin arasında qeyri-rəsmi ittifaq müxtəlif beynəlxalq platformalarda və forumlarda, o cümlədən BRİKS, ŞƏT, G20, BMT, APEC-də rəng tonu yaratmağa çalışdı. Qlobal Cənubda Qərblə ziddiyyətli və ya problemli münasibətləri olan inkişaf etməkdə olan dövlətlərin böyük bir qrupuna müraciət edən Pekin və Moskva Qərbin monopoliyasını rədd etdilər. Nəticədə, onlar çoxqütblü dünyanın bir növ ikili qütbü kimi meydana çıxdılar, yeni, tez-tez situasiya olsa da, müttəfiqlərə və tərəfdaşlara çevrilməyə hazır olduqlarını göstərdilər. Si Cinpinin ən yüksək dövlət statusu verilən bu il ilk xarici səfərini mart ayında Rusiyaya etməsi çox simvolikdir. Onun Moskva səfərinə maraq iki amillə bağlı idi. Birincisi, Vladimir Putin Ümumçin Xalq Nümayəndələri Yığıncağının mart sessiyasında üçüncü müddətə yenidən seçildikdən sonra Si Cinpinin dərhal görüşmək qərarına gəldiyi ilk lider oldu.

İkincisi, xüsusi hərbi əməliyyatın başlanmasının ildönümündə Pekin gözlənilmədən Ukraynada sülhməramlı roluna namizədliyini irəli sürüb: fevralın 24-də Çin Xarici İşlər Nazirliyinin internet saytında “Ukrayna böhranının siyasi həllində Çinin mövqeyi” adlı sənəd yerləşdirilib. 12 bənddən ibarət plana BMT Nizamnaməsinin tələb etdiyi kimi bütün ölkələrin suverenliyinə hörmət etmək, soyuq müharibə zehniyyətindən əl çəkmək, “müharibədə qalib yoxdur” kimi atəşi dayandırmaq və Pekinin yeganə çıxış yolu adlandırdığı danışıqlara başlamaq çağırışları var idi.

### Geosiyasi tərəfdaşlıqlarda praqmatik dəyişkənlik

Pekinin təşəbbüsü ilə bağlı ilk qiymətini verən Vladimir Putin daha sonra bildirib ki, Qərb və Kiyev buna hazır olduqda Çin planının bir çox bəndləri gələcək nizamlanma üçün əsas götürülə bilər. Beləliklə, artıq ilin əvvəlində gözləntilər yaranmışdı ki, Ukrayna münaqişəsinin həllinin açarı Si Cinpinlə Vladimir Putinin təmasları, eləcə də Çin lideri ilə onun nümayəndələri arasında Ukrayna prezidenti Vladimir Zelenski ilə mümkün ünsiyyət zamanı tapıla bilər. Çinin Qərbdə sülh planına şübhə ilə yanaşmasına baxmayaraq, Pekin dərhal atəşkəs və siyasi həll ideyasının praktiki tətbiqini təmin etmək üçün çox səy göstərdi. May ayında Çinin Avrasiya məsələləri üzrə xüsusi nümayəndəsi Li Hui Avropa turnesinə çıxdı və onun proqramına Ukrayna, həmçinin Polşa, Fransa, Almaniya və Rusiyaya səfərlər daxil idi.

“Tələb olunan böhranın təcili siyasi həllinə ehtiyac olduğunu dərk etməkdir. Mürəkkəb suallara sadə cavablar yoxdur. İstənilən hərtərəfli həll həmişə ilk addımdan başlayır. Biz əbədi olaraq gözləyə bilmərik”, bunu Çin Xalq Respublikasının daimi nümayəndəsi Zhang Jun BMT Təhlükəsizlik Şurasının iclasında deyib. Pekinin Ukrayna münaqişəsində sülhməramlı kimi çıxış etmək cəhdi ekspert icması tərəfindən böyük geosiyasi təlatümlərə və iqtisadi sanksiyalar müharibəsinə səbəb olan böhranın tezliklə həllinə nail olmaq istəyi kimi qiymətləndirilib və bu, təkcə Rusiyaya deyil, həm də onun ən yaxın strateji tərəfdaşı Çinə getdikcə daha çox zərbə vurur.

Rusiyaya sanksiya təzyiqi kontekstində Çin Moskva ilə ticarətə məhdudiyyətlər qoymayan dünyanın ən böyük iqtisadiyyatı olaraq qalır. Bununla belə, bu vəziyyət artıq böhran və münaqişələrlə yüklənmiş Çinin Qərblə münasibətlərində ciddi qıcıqlandırıcı olaraq qalır.

### Çinin Rusiya üçün heç vaxt olmadığı şey

Ötən ilin sonuna qədər Çin sülh planına maraq azalmağa başladı, çünki onun həyata keçirilməsi üçün ilkin şərtlər meydana çıxmadı. Vladimir Putinin oktyabrda Pekinə “Bir kəmər, bir yol” Forumu üçün səfəri zamanı Çinin sülh planından söz açılmayıb. Çin mediasına müsahibəsində Vladimir Putin Si Sinpinlə təmaslarını vurğulayaraq, onu “müvəqqəti”lərdən fərqli olaraq “əsl dünya lideri” kimi xarakterizə edib. İlin sonunda Vladimir Putin Rusiyanın Ukrayna ilə bağlı məqsədlərindən əl çəkmək niyyətində olmadığını və Kiyev təslim olana qədər hərbi əməliyyatları davam etdirəcəyini təsdiqləyən bir sıra yeni yüksək profilli bəyanatlar verdi. Beləliklə, Pekinin Ukrayna münaqişəsinin tezliklə həllinə olan ümidləri özünü doğrultmadı. Si Cinpinin diplomatik səyləri puç oldu. Bu, Pekini Moskvaya dəstəyindən əl çəkməyə məcbur etməyəcəyi kimi, iki ölkə arasında daha da yaxınlaşmağa da kömək etməyəcək.

Beləliklə, dünyanın hərbi-siyasi mənzərəsi hər iki düşərgələrdə mənzillənmiş tərəflərin mövqelərindən geri addım atmayacaqları görüntüsü yaradır. Əgər dünyada üçüncü və həm də balanslaşdırıcı qütb, yaxud tərəf mövcud deyilsə, mütləq müharibəmi olmalıdır? Bəs, BMT, bu təşkilat nə işə yarayır? Arbitr olmaq azdır, əsas məsələ oyunu düzgün və ədalətli idarə etməkdir.

**V.VƏLİYEV**

***P.S.*** *Məqalədə xarici mənbələrə istinadlar var.*



# Oyuncaqlar uşaqların xarakterini formalaşdırır



*Oyuncaq uşaqların ən sevimli əyləncəsidir. Onlar saatlarla oyuncaqlarla vaxt keçirir, onlarla təmasda olur, sanki oyuncaqların "xarakterinə" uyğun olaraq öz kiçik dünyalarını qururlar. Bütün bunları kənardan müşahidə böyüklər isə onların bu əyləncələrini, etdikləri hərəkətləri, oyuncaqlarına qarşı münasibətlərini sadəcə təbəssümlə qarşılayırıq. Bu təbəssüm bizi uşaqlarımız üçün yeni oyuncaqlar almağa da həvəsləndirir. Biz oyuncaqları aldıqca, həm də bol-bol aldıqca onlara tələbat daha da artır. İstehsalçı daha hansı, nə cür oyuncaqlarla uşaqların diqqətini cəlb etməyi düşünür və nəticədə gündən-günə bu sahədə yeniliklərlə qarşılaşırıq. Qarşılaşdıqca isə fərqinə varmadan bütün növ oyuncaqlardan balacalarda olmasını istəyir, alır, alırıq. İstehsalçı qazanır, bəs istehlakçı? Bu barədə düşünürükmü?*

## Oyuncaq həm də tərbiyəedəndir

Əminliklə söyləmək olar ki, oyuncaqlar uşaqların xarakterini formalaşdırır, həm yaxşı, həm pis mənada. Zaman-zaman bunu uşaqlarda müşahidə edirik. Hətta ailədə qız uşaqları böyük, oğlan uşağı kiçik olanda belə qızların gəlinciklərlə oynaması, bəzən oğlan uşağının da onlarla birgə bu oyuncaqlarla əylənməsi onun sakit, yumşaq təbiətli olması ilə nəticələnir. Oğlanın oyuncaq maşını qızların gəlinciyini gəzdirmək, onu bağçaya, məktəbə aparıb-gətirmək üçün istifadə edildikcə qız və oğlan övladlar arasında birgə yaşamaq, paylaşmaq, qayğı kimi hisslər formalaşır. Bu, məsələnin bir tərəfi.

Digər bir fakta nəzər salaq. Uşaqlar üçün aldığımız quraşdırma oyuncaqlar onların beyinlərinin inkişafı üçün əhəmiyyətli olmaqla yanaşı, həm də bacı-qardaş arasında birgə oyun oynanılması ilə nəticələnir. Beləliklə də bu, onların yaddaşına hopur və uşaqlar birgə qurmaq, yaratmaq, həmçinin paylaşmaq ruhunda tərbiyə olunurlar.

Qız uşaqlarına aldığımız gəlinciklərin görünüşü, geyimi, saç quruluşu bu uşaqların xarakterinə yansıyır. Zaman-zaman görürük ki, uşaqlar özlərini onlara bənzətməyə çalışır. Analarından onlar kimi geyinməyi istəyirlər. Saçlarının gəlinciklərinin saçı kimi hörülməsini və yaxud da açıq saxlanmasını, qısa, uzun olmasını istəyirlər.

Aldığımız maşın, tapança ilə oğlan uşaqlarının oynamalarını kənardan müşahidə etdikdə görmək olur ki, onlar hər növ maşınla onun xüsusiyyətinə uyğun davranmağa çalışırlar. Məsələn, uşaqlar yük, kiçik minik maşınları ilə oyuncaq tanklarını sürərkən eyni səs çıxarmırlar. Tank sürəndə daha ucadan, əzmli səs, yük və minik maşınlarını sürəndə isə tamamilə başqa səs çıxarırlar. Deməli, oyuncaq həm də uşağın ayrı-ayrı əşyalara münasibətini formalaşdırır.

Sadaladığımız uşaq oyuncaqlarının çox az hissəsidir. Digər oyuncaqlar da var ki, uşaqlar onlarla evcik qurur, oynayır, bu oyuncaqların nə üçün istifadəsini valideynləri, yaxınları tərəfindən öyrənməklə onları müvafiq şəkildə oynadır və oynatmaqla da nələrsə öyrənirlər. Bütün bunları düşünərək övladlarımız üçün oyuncaq seçərkən onların yaşlarını nəzərə almaq, elə oyuncaqlar seçmək lazımdır ki, bunlar onların böyüməsində əhəmiyyəti olan oyuncaqlar olsunlar.

## Oyuncaq seçimində bəzən yanılırıq

Yanılırıq, həm də çox yanılırıq. Bu, o qədər əhəmiyyətli məsələdir ki, oyuncaq seçərkən, alarkən, necə deyərlər, min ölçüb, bir biçmək lazımdır. Çünki hər bir oyuncağı uşaqlara almaq olmaz. Ən birinci, bir xeyli vəsait xərclədiyimiz oyuncaqların keyfiyyətinə fikir verilməlidir. Daha sonra isə onun uşaqlarımıza necə təsir etməsi haqqında düşünməliyik. İndi istehsalçılar var ki, gündən-günə öz məhsulları arasına yeniliklər əlavə edir. Daha nə istehsal edim ki, maraqlı, cəlbedici olsun deyə düşünür və elə oyuncaqlar istehsal edib bazarlara çıxarırlar ki, bunlar uşaqların psixologiyasını məhv etmək gücünə malik olur. Hansısa vəhşi heyvanın qorxunc görüntüsü və səsi əks olunan oyuncaqlar, çox pis təsir bağışlayan gəlinciklər, təbii ki, uşaqlarımızı zaman-zaman psixoloji gərginliklə üz-üzə qoyur. Lakin biz bunu hiss etmirik.

Yaxın qohumlardan birində qonaq olarkən bir hadisənin şahidi oldum. 2-3 yaşlarında uşaq ağlayır, ana gətirib oyuncaqları tökür qarşısına ki, uşaq onlarla başını qatsın. Bu dəfə uşaq daha çox ağlamağa başlayır. Ana hirslənir. Uşaqdan nə istədiyini soruşur. Sanki bu hələ cümlə qurmağı bacarmayan uşaq dil açıb nə istədiyini anasına anladacaqmış... Nə isə, ana hirslənir, uşaq ağlayır. Məsələyə qarışmalı oldum. Uşaqla oynamağa başladım. Oyuncaqları bir-bir ona təqdim edərkən gördüm ki, bu uşaq gəlinciklərdən birini ona tərəf uzatdıqda daha möhkəm ağlamağa başladı. Hiss etdim ki, uşaq həmin gəlincikdən qorxur. Onu gizlətdim, oyuna davam etdik. Bir az sonra uşağın qəhqəhəsi otaqla bir idi.

Sonra uşağın anasına məsləhət bildim ki, həmin oyuncağı, ümumiyyətlə, bir daha ona göstərməsin və ona oxşar oyuncağı əsla almasın. Həm də məsləhət bildim ki, oyuncaq seçimində diqqətli olsun. Çünki uşaqlar oyuncaqlarla oynaya-oynaya böyüyürlər. Onlarda oyuncaqlar xarakterlər formalaşdırır. Uşaqlarda aqressiyalar, qışqırmalar, əsəbilik, qəddarlıq, kobudluqhamısı oyuncaqların onlarda zamanla yaratdıqları xarakterlərdir.

İndi mağazalarda oyuncaqlar var ki, onlar əsla alınmamalıdır. Çünki onlara baxanda böyük adam qorxur. Bəs uşaq necə, qorxmaz? Həmin oyuncaqlar nəinki alınmalı, valideynlər onların istehsalçılarını günahlandırmalı, onlardan hesabat istəməlidirlər. Bir sözlə, oyuncaq seçimi hazırda ən həssas məsələdir. Doğru seçilməyən oyuncaq uşaqlarımızın əyləncəsinə yox, onların psixologiyasına zərbəyə çevrilir.

## Cizgi filmlərinin oyuncaq seçimində rolu

Valideynlər var ki, uşağı sakitləşdirmək, necə deyərlər, başından edib çoxseriyalı filmlərə baxmaq, ev işləri ilə məşğul olmaq üçün televizoru açıb cizgi filmləri nümayiş etdirən kanalları tapır və uşağı qoyur onun önünə ki, səsi çıxmasın. Uşaqsa saatlarla həmin cizgi filmlərinə baxmalı olur. Elə buradaca da onun xarakteri formalaşmağa başlayır.

Biz tez-tez uşaqlar arasında oyuncaqlarla, bacı-qardaşları ilə kobud şəkildə rəftar edənlərə rast gəlirik. Sonra bağça müəllimi həmin uşağın yoldaşlarına qarşı kobud davranması barədə bizə məlumat verir. Biz nə edirik, onu bir az danlayırıq, bitir. Daha sonra isə övladımız məktəbə-birinci sinfə yollanır. Yenə sinif müəllimi onun uşaqlarla düzgün rəftar etmədiyini söyləyir. Düşünürük ki, bu uşağın xarakteri belədir də. Yenə də başlayırıq onu danlamağa. Lakin düşünmürük ki, axı bu uşaq nə üçün belə olub. Düşünmürük ki, bu uşağı bu vəziyyətə biz özümüz gətirib çıxarmışıq. Ona yaşına, anlayışına uyğun olmayan cizgi filmləri təqdim etməklə uşağın psixologiyasını tar-mar etmişik.

Bunları dərk etmədiyimiz üçün artıq uşaqlarımız oyuncaqlarını da özləri seçirlər. Cizgi filmlərindəki oxşamaq istədikləri qəhrəmanların oyuncaqlarını almağımızı istəyirlər. Bu dəfə də biz onların məhvinə doğru yenidən yola çıxırıq və həmin oyuncaqları alırıq. Beləliklə cizgi filmlərinə baxdıqları zaman övladlarımızın alt şüuruna yerləşmiş mənfi obrazların oyuncaqlarını onların əllərinə verməklə tamamilə ona bənzəməsinə şərait yaradırıq.

Bu cür uşaqların evdə, bağçada, məktəbdə, həyətdə yaşıdları arasında aqressiv hərəkətləri hələ də bizə çatmır ki, çatmır. Lakin o, böyüyür. Həm də ki, qəddarlıqla, kobudluqla. Bir də baxırıq ki, uşağımız artıq böyük oğlandır. Lakin hər gün yaşıdları ilə dalaşır, gəlir, hər gün ondan gileylər, şikayətlər gəlir. Bizsə nə deyirik: bax elə bu, uşaqlıqdan belədir bax. Başlayırıq yenə onu danlamağa.

Lakin danlanmalı o uşaq deyil. Biz valideynlərik. Onun bu cür xarakterə malik olmasında günahkar bizik. Bunun üçün özümüzü danlamalı, günahkar hesab etməliyik, növbəti dəfə belə səhvlərə yol verməmək üçün...

## Bu gün əyləndirən oyuncaqlar sabahın faciəsi ola bilər

Bəli, bunu bir daha unutmamalıyıq ki, bu gün istənilən bir oyuncağı düşünmədən, götür-qoy etmədən, övladımızın psixoloji vəziyyətini, yaşını, dərketmə qabiliyyətini fikirləşmədən aldığımız oyuncaqlar sabah onların da, bizim də faciəmiz ola bilər. Birincisi, uşaqlara çox oyuncaq almaq ümumiyyətlə, düzgün deyil. Bunu bir valideyn kimi dərk edib qohumlara, yaxınlara da demək lazımdır ki, mənim uşağıma çox oyuncaq almayın. Çox oyuncaq uşağın fikrini haçalayır. O, bilmir ki, əyləncəsini hansı şəkildə qursun. Oyuncaqlar arasında seçim edərkən beyni yorulur, onları bir-birinə qarışdırır. Bəzən hirslənir, lakin biz bunu kənardan görə bilmirik. Daha doğrusu, çox halda görməyə vaxt tapa bilmirik.

Uşaqlarımıza oyuncaq seçərkən onlara sadə, anlamlı, keyfiyyətli oyuncaqlar alınmalıdır. Əks təqdirdə, ən birincisi onların sağlamlığı təhlükə altına düşər. Daha sonra isə zamanla psixoloji vəziyyətində qüsurlar yarana bilər. Bütün bunların qarşısının vaxtında alınma şərtlərindən biri də uşaqla valideyn arasında yaxın təmasın olmasıdır. Valideyn övladına vaxt ayırmalı, onunla birlikdə oyuncaqlarla oynamalı, uşağın hansı oyuncaqlara daha çox meylli olduğunu müşahidə etməlidir. Əgər uşaqda qəddarlıq, kobudluq ehtiva edən oyuncaqlara meyl aşkar edərsə, onu zaman-zaman doğru olan istiqamətə yönləndirməlidir. Bu, uşaq kiçik olarkən asan olur. Lakin o, bir qədər böyüdükdən, artıq psixologiyası zədələndikdən sonra mümkün olmur.

Hər bir valideyn övladlarını min bir əziyyətlə böyüdür, onların təlim-tərbiyəsinin düzgün olması birinci arzusu olur. Lakin bunu da bilmək vacibdir ki, uşaqlar bizim əsərlərimizdir. Sanki bir rəsm əsəri kimidirlər. Hansı rənglərdən istifadə etsək, çəkəcəyimiz rəsmdə yalnız o rənglər olacaqdır. Hansı mənzərəni çəkmək istəsək, rəsmin sonunda həmin mənzərə ilə qarşılaşacağıq. Buna görə də uşaqları bu gün onları bütün mənalarda əyləndirən, sabah isə təhlükə ilə üz-üzə qoyan, həyatlarının faciəsinə çevrilən oyuncaqlardan uzaq tutmalıyıq.

Bəli, hər bir valideyn o zaman rahat olur ki, övladlarını xoşbəxt görür. Xoşbəxtlik nədir? Düzgün tərbiyə, sağlam bədən və ruh, təhsil, cəmiyyətdə qazanılan mövqe. Bütün bunların təməli isə evlərimizdə, həm də bizim iştirakımızla qoyulur. Bu məsələdə iki cür iştirakçıyıq. Bir hadisələrin düz içərisində, bir də hadisələri kənardan izləyən şəxs kimi. Bu qədər sadə. Düşünürəm ki, bir valideyn üçün hansının ən doğru olduğunu anlamaq heç də çətin deyil...

**Mətanət Məmmədova**

MÜNASİBƏT







# Bakı və İrəvanın sülhə gedən çətin yolu: Qərb niyə əngəllər yaradır?



## Əcnəbi ekspertlərin rəyi

***Bakı dəfələrlə bəyan edib ki, bəzi Qərb dövlətləri Ermənistandakı revanşist qüvvələri dəstəkləyir və bununla da sülh prosesinə mane olurlar. Azərbaycan Ermənistanla ikitərəfli danışıqlara hazır olduğunu bildirsə də, Qərbdə heç də hamı onillik-lərlə davam edən münaqişəyə tam son qoyulmasını istəməz.***



Niyə Qərbdə belə bir tendensiya var? Ermənistanla Azərbaycan arasında "nə sülh, nə müharibə" vəziyyətinin davam etməsi kimə və nəyə sərf edə bilər?

Tanınmış xarici müşahidəçilər "Caliber" analitik mərkəzinə bu vəziyyəti şərh ediblər. Ekspertlərin rəylərini oxucularımıza təqdim edirik. Qırğızıstanlı politoloq, regional təhlükəsizlik üzrə ekspert Mars Sariyev bildirib ki, o, Avropanın ikili standartlarını başa düşür, hansı ki, bu ikili standartlar qədim tarixi dövrlərdən bəri davam edir.

"Biz Ermənistanın necə formalaşdığını başa düşürük. Məlum olduğu kimi, əvvəllər bu ərazidə İrəvan xanlığı mövcud olub və Rusiya İranla müharibə apararkən Vatikanın layihəsi ilə Cənubi Qafqazda erməni qurumu yaradılıb. Demək lazımdır ki, ermənilər tarixən Türkiyədə, Suriyada, Qafqazda Avropa planlayıcıları, xüsusən də Vatikan işə qarışana qədər dinc yaşayıblar. Onlara erməni dövləti yaratmaq lazım idi. Bu Rusiyanın da maraqlarına uyğun gəlirdi. Türklərin əhatəsində olan Ermənistan Avropa dövlətlərinin forpostuna çevrildi. Üstəlik, Osmanlı İmperiyası dağılma vəziyyətində idi. Ermənistan belə bir şəraitdə formalaşdı. Bu, regionun formalaşmasına belə konstruktiv, layihə əsaslı yanaşmadır. İndi isə Rusiya bu vəziyyətdən razı deyil, çünki Ermənistan onun forpostu olmaqdan çıxır. Moskva indi daha çox Türkiyə, Azərbaycanla yaxınlaşmaqda, Fars körfəzinə çıxışı olan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında maraqlıdır. Ona görə də Ermənistan-Azərbaycan münaqişəsinin son inkişafı zamanı Rusiya passiv mövqe nümayiş etdirdi. Bundan başqa, Moskva başa düşürdü ki, Mərkəzi Asiyanın türk dövlətləri Azərbaycana simpatiya bəsləyir və hətta KTMT çərçivəsində Ermənistanı dəstəkləməyəcək", - ekspert bildirib.

İndi Qırmızı dəniz və Bab-əl-Məndeb boğazı bağlandığından, Şimal-Cənub marşrutu Rusiya üçün çox perspektivli olub,- Sariyev deyir. "Ona görə də Qərb, bəzi Avropa ölkələri, xüsusilə ABŞ, böyük erməni diasporu olan Fransa Rusiyanın bu dəhlizdən keçməsində maraqlı deyil. Və onlar daimi böhranın tərəfdarıdırlar, Ermənistana Azərbaycanla mübarizə aparmağa kömək edirlər ki, "nə müharibə, nə də sülh" olsun. Beləliklə, onlar həm Rusiyanın, həm də Mərkəzi Asiya ölkələrinin Türkiyə üzərindən Avropaya çıxışını təmin edəcək Zəngəzur dəhlizini tikmək istəyən Azərbaycanın qarşısını kəsirlər.



Beləliklə, Ermənistan xalqı əvvəllər əsrlər boyu ətraf xalqlarla sülh şəraitində yaşasa da, onlarla ticarətlə məşğul olub, çiçəklənsə də, Qərb dövlətləri böhranı süni şəkildə saxlayırdılar. İndi də sülh bağlansa buna oxşar bir şey ola bilər, lakin bəzi Avropa dövlətləri və ABŞ bunda maraqlı deyil. Çünki böhran Rusiyanın cənub sərhədləri yaxınlığında qeyri-sabitlik zonası yaradır və həmçinin Çinin yeni yaranmaqda olan "Bir kəmər, bir yol" nəqliyyat layihəsini kəsir. Yəni Cənubi Qafqaz Rusiya Federasiyası və Çinin qarşısını almaqda Qərb üçün alver obyektinə çevrilir. Bunun çərçivəsində erməni millətçiliyi dəstəklənir və "dənizdən dənizə böyük Ermənistan" ideyaları şişirdilir. Hər şey Cənubi Qafqazda sabitliyin pozulmasının daimi mənbəyini yaratmaq üçündür. Hansı ki, bu, əhalinin azalmasının davam etdiyi Ermənistanın özünün maraqlarına qətiyyən cavab vermir.

Təbii ki, Fransa və ABŞ-ın həyatına inteqrasiya olunmuş diasporlar bu ölkələrin xüsusi xidmət orqanlarının nəzarəti altındadır və müvafiq olaraq Ermənistan xalqının mənafeyinə, onların öz qonşu xalqları ilə harmonik yanaşı yaşamalarına qarşı oynayırlar.

Bütün bunlar xarici, layihə əsaslı xarakter daşıyır. Belə bir şəraitdə Paşinyan Ermənistanı regionun həyatına inteqrasiya etdirməyə çalışır, lakin buna öz layihələri ilə kənar oyunçular mane olur. Onlar Yaxın Şərqdə kürdlərlə "böyük Kürdüstan" kartı ilə etdikləri kimi eyni şeyi etməyə çalışırlar, eynilə də uyğur separatçıları ilə etdikləri kimi-onlar üçün xəritələr və miflər yaradılır.

Ona görə də düşünürəm ki, Azərbaycan ayıq-sayıq olmalı və regionda sabitliyi pozmaq cəhdlərinə qarşı əks tədbirlər görməlidir", - qırğız analitik deyir.

Lakin burada bir sıra çətinliklər yaranır,- isveçli fəlsəfə doktoru Qreq Simons deyir. "Birincisi, Aİ ölkələri əsasən ABŞ-ın vassallarıdır və öz maraqları və təhlükəsizlikləri bahasına olsa belə, onları Vaşinqtona itaət etməyə məcbur edən daxili köləlik zehniyyətinə malikdirlər. Hazırda Vaşinqtonun "parçala və hökm et" üsulu ilə regionda qeyri-sabitlik yaratmaq üçün özünün



sınanmış və effektiv siyasətinə əl atdığı görünür. Bu, onların yeni yaradılmış müştəri dövləti- Ermənistan vasitəsilə həyata keçirilir. Məqsəd ABŞ-dan asılılıq yaratmaq, İran və Rusiya kimi dövlətləri məhv etmək, Azərbaycan və Türkiyə kimi regional oyunçuların subyekt kimi yox, obyekt kimi təqdim olunmasını təmin etmək kimi görünür. Bu, ABŞ-a daha çox manipulyasiya etməyə imkan verir və digərlərinə öz maraq və məqsədlərini müdafiə etməyə imkan vermir", - politoloq qeyd edir.

Onun fikrincə, ikinci məqam həm də bu ola bilər ki, Aİ-nin bəzi ölkələrində (xüsusən də, Fransada) güclü və nüfuzlu erməni diasporası var. "Baxmayaraq ki, mən bunu birinci bəndlə müqayisədə az əhəmiyyət kəsb edən hesab edərdim"- deyə Simons yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***



Vəli Vəliyev

# Fransız molla

***Çox qəribə dövrdə yaşayırıq, dinsiz dindən, imansız imandan, bir sözlə, kimdə nə yoxdursa ondan dəm vurur. Ən əsası da başqalarına ağıl dərsi keçir, ittiham edir, yeri gələndə isə yerdən-yerə vurur. Amerikanın, Avropanın bir neçə növ "atıcı" silahı var, məsələn "demokratiya", "tolerantlıq", "insan haqları". Bəziləriniz fikirləşərsiniz ki, mən hər kəsin həyatında vacib element sayılan bu nəsnələrə qarşıyam, ya da mənə "sovet adamı" damğasını vurub lənətləyərsiniz.***

Yox, əlbəttə, hər söz və yaxud söz birləşməsinə yazıldığı statusu daşımağa imkan verilsə, reallıqda olduğu kimi düzgün tətbiq edilsə, çox yaxşı olar və mənin dediklərimə də haqq qazandırarsınız. Məsələn, Amerikada insan haqlarından ağızdolusu danışılır, amma cəmiyyətə ixracında böyük problemlər var. İnsan haqları polisin dəyənəyində, məmurun iddiasında, oğrunun, soyğunçunun, qatilin əşyayi-dəlilində ilişib qalır. Demokratiya da əvvəlki mənasını çoxdan itirib. Amma amerikalılar bizi "geridəqalmış" hesab etdiklərindən elə min il əvvəlki yunan filosoflarının "demoskratos"u ilə başımızı aldadırlar. Görünür, onları "yaxşı" başa salan yoxdur ki, ay kişi, əvvəlcə özün buna əməl et, sonra bizi qarala

Aldığım son xəbərdən isə lap çaşıb qalmışam, fransız hara, molla hara, "inşallah" hara. Məsələ burasındadır ki, Fransa prezidenti Makron yeni qanun qəbul edib, Fransada din məsələlərinə DİN-də baxılacaq, yəni Daxili İşlər Nazirliyində. Anlaşılan olmadısa, bir az da dərinə gedək. Makron hesab edir ki, artıq Fransa müsəlmanları ilə iş aparan əlcəzairli və türkiyəli mollaların missiyasını bitirmək, onları ölkələrinə yola salmaq lazımdır. Təbliğat məsələləri ilə bundan sonra respublikanın Daxili İşlər Nazirliyi məşğul olacaq.

Fransa bu ildən etibarən Əlcəzair və Türkiyə kimi müsəlman ölkələrindən ezamiyyətə göndərilən imamların ölkəyə gəlişini qadağan edib. "İnşallah!", deyib, fransızlar sevinir. Fransa prezidenti Emmanuel Makron bu addımın zəruriliyi barədə ilk dəfə təxminən dörd il əvvəl, 2020-ci ildə danışmışdı. O, ölkə məscidlərinin xarici dövlətlər tərəfindən Fransaya göndərilənimamların təbliğat aparmasından narahat idi. "İmamların" işi Fransanın 1990-cı illərdə Əlcəzair, Merakeş və Türkiyə ilə bağladığı ikitərəfli müqavilələrə uyğun olaraq həyata keçirilirdi. Rəsmi olaraq, emissarların məqsədi din xadimlərinin çatışmazlığı ilə üzləşdiyi iddia edilən Fransanın "müsəlman icmalarına" kömək etmək idi.

Emmanuel Makron imamların "islamçı separatizm" fəaliyyətindən şübhələndiyindən onlara qarşı növbəti səlib yürüşünə çıxıb. Nəticədə əcnəbi imamlar üçün üç illik keçid dövrü artıq bitib. Onlar 2024-cü ilin əvvəlindən Fransaya buraxılmayacaq. İmamlara aprelin 1-dək vaxt verilib. Onlar ya evlərinə qayıtmalı, ya da Fransada işləmək üçün başqa yerlər tapmalı olacaqlar. Fransa Müsəlman Şurasının vitse-prezidenti Abdullah Zekrinin də "maraqlı" fikirləri var. O, bildirib ki, "ölkə məscidlərində 270 imam çalışır ki, onlardan 150-si Əlcəzairdən, 120-si Türkiyədəndir. İslamın ikinci ən böyük din olduğu Fransada heç kim müsəlman xidmətlərini qadağan etmək fikrində deyil. Hökumət yalnız onlara respublikanın məktəb və universitetlərində ilahiyyat təhsili almış, ölkə daxilində maaş alan fransız imamlarının rəhbərlik etməsini tələb edir. Bundan əlavə, xidmətlər fransız dilində aparılmalıdır". Yəqin Quran da fransız dilində oxunacaq, salavat da

Bu arada, qeyd edək ki, fransızlar ümumilikdə həm prezidentin qərarını, həm də onun həyata keçirilməsi üçün Daxili İşlər Nazirliyinin atdığı konkret addımları dəstəkləyirlər. Bir çoxları isə "respublika dəyərlərini" inkar etməyən, "söz və fikir azadlığını" şübhə altına almayan tam hüquqlu ilahiyyat təhsili almış fransızları o vəzifələrdə görmək istəyirlər. Yenə ayrıseçkilik, islamofobiya

Qərar, fransızların fikrincə, çox gec verilib. Sevinirlər ki, "Fransada əlcəzairli və türk imamlar bundan sonar olmayacaq, İnşallah!".

# Tarixin dəhşətli olayları: Sarıqamış hərəkatı

*Yaddaşlarda, salnamələrdə iz salan və zaman-zaman xatırlanan tarixi hadisə - Sarıqamış hərəkatı. İnsanın düşüncəsinə, silinməz daş yaddaşlara sarsıdıcı olay kimi həkk olunan bu hərakət minlərlə insanın həyatına son qoydu. Həmin hadisədən bizi 109 illik zaman ayırır. Qısa bir tarix deyil.*







90 mindən çox əsgərin donub şaxtalı çöllərdə buz adama çevrilməsi bir dastandır. Bəzən insan əqli, belə bir hadisənin tarixdə yaşamasına inana bilmir, tarix isə həqiqəti yazır. Tarixin yazıya aldığı acı və tükürpədici səhifələri vərəqlənir. Rusiya imperiyası ilə Osmanlı imperiyası arasında 1914-cü il dekabr ayından 1915-ci il yanvar ayına qədər Sarıqamış bölgəsində baş verən hərbi münaqişə tarixin yeni səhifəsinə yazıldı. Tarixi mənbələrdən məlumdur ki, Birinci Dünya Müharibəsində Türkiyənin düşdüyü vəziyyətdən yararlanan Rusiya Osmanlıya müharibə elan edir. Cənub-Şərqi Anadolunun azad olunması üçün Osmanlı dövləti yeni - 9-cu Qafqaz cəbhəsini yaratmalı oldu. Hərbi nazir Ənvər Paşanın hazırladığı plana əsasən, Sarıqamışa iki istiqamətdən - Sarıqamış və Allahuəkbər dağlarından hücum edərək Qafqazda rus qoşunlarına zərbə endirməli idi. 1915-ci ilin əvvəllərində "Turan fatehi", "Sarıqamış fatehi" olmaq arzusu ilə alışıb-yanan Ənvər paşa qışın həddən artıq soyuq olmasını, əsgərlərin isti paltar və ərzaqla yaxşı təmin olunmamasını nəzərə almadan Qafqazda hərbi əməliyyatların başlamasına əmr verir. Vəziyyət elə bir vaxta təsadüf edir ki, Osmanlı ordusuna ərzaq, döyüş sursatı və pal-paltar gətirən gəmiləri çar ordusu Qara dənizin sularında batırır. Əlbəttə ki, vəziyyətin son dərəcə ağır olduğunu görən tədbirli və güclü sərkərdə istefada olan Hasan İzzət paşa tələbəsi - 34 yaşlı Ənvər paşaya əl saxlamağı, bir az gözləməyi məsləhət görür: "Qara qışın ən sərt çağıdır. İndi hərəkət etmək göz görəsi faciəyə getməkdir. Qış şiddətini azaltsın, yollar açılsın,

biz də hazırlıqlarımızı bir az artıraq, ondan sonra düşmənə həddini bildirərik". Lakin Ənvər paşa razılaşmır. Tamamən qarla qapalı, çox yüksək dağlıq və yolsuz bir ərazidə, o günün şərtləri ilə qış təchizatından məhrum piyada üçün bu yürüş çox riskli idi. Amma Ənvər Paşanın ruslara olan sonsuz nifrəti onun bu böyük riski nəzərə almasına mane oldu. Beləcə, həm silah-sursat, həm də təchizat və qida baxımından mövcud problemlərə baxmayaraq, Ənvər paşa 125 min əsgərə "irəli" əmri verir.

## "YIXILIB QALAN ƏSGƏR QALDIRILMAYACAQ"

Mənfi 40 dərəcə şaxta türklərə düşməndən daha betər qənim kəsilir. Gündüz başlayan yürüşdə əsgərlərin yumşalan çarıqları gecə donmağa, bir qəlib kimi ayaqlarını sıxmağa başlayır. Addım atmaq imkansız olurlar. Əsgərlər donmamaq üçün olduqları yerdə hoppanıb-düşməyə başlayırlar, ancaq şaxta bütün vücudlarını sarır. Ənvər paşanın növbəti əmri gəlir: "Yıxılıb qalan əsgər qaldırılmayacaq".

125 minə yaxın əsgər və zabitdən ibarət isti paltarsız, təminatsız, zəif silahlanmış ordunun arasında yüzlərlə azərbaycanlı könüllü də var idi. Canı bir, qanı bir qardaşlarına köməyə getmişdilər. Tarixçilər bu mənzərəni belə ifadə edirdilər: "Altı əsrlik qoca Osmanlı ölüm növbəsində idi". Ruslar vaxt itirmədən Qafqaz cəbhəsini açır və Qərbi Anadolu torpaqlarına girirlər. Avropa və Asiyanın bir çox ölkələrinə səpələnmiş Osmanlı ordusu ingilis, fransız, yunan və rus hücumları qarşısında duruş gətirə bilmirdi. Hər gün sayı azalırdı. Hərəkət planına görə, 9-cu ordu Sarıqamış dağlarını, 10-cu ordu isə Allahuəkbər dağlarını aşaraq, rusları Sarıqamışda mühasirəyə almalı idi.

## "MƏN QƏLBƏN SAVAŞDIM VƏ PEŞMAN OLMADAN ÖLÜRƏM"

Tarixin səhifələrində göstərilir ki, ruslar yanvarın 4-də qəti hücuma keçdilər. Türk ordusu özündən 8 qat güclü düşmənlə qarın-çovğunun altında üz-üzə idi. Gözlənən yardım da gəlməmişdi. Ənvər paşa vəziyyətin nə qədər ağır olduğunu gördükdən sonra vəsiyyət yazır: "İndiyə qədər əsgər və zabitlərimiz qüsursuz savaşdılar, bir çox manevr etdilər. İndi isə 11-ci kolordunu və süvari dəstəsini gözləyirəm. Gəlir və yetişərsə düşməni pozacağam. Gəlməsə düşmən zəifləmiş hissəmizə hücum edər, ordumuz məhv olar. Mən vəzifəmi yaptığımı sanıram. Məğlub olmayın, düşmənlə sona qədər savaşın, hər halda sonunda müvəffəq olacağıq. Mən qəlbən savaşdım və peşman olmadan ölürəm. Yaşasın dinim, Vətənim, padişahım!"

1915-ci ilin yanvarı idi. Yaşam dövründə zəfərləri qədər faciləri də çox olan Osmanlı dövləti tarixinin bu günündə səhifəsinə tayı-bərabəri olmayan, tükürpədici faciə yazdı. Sarıqamışda 90 mindən çox mehmetcik donub şaxtalı çöllərdə buz adamlara çevrildi. Soyuqdan bir-birinə sarılanlar elə bu vəziyyətdəcə ölmüşdülər. Türk qanına susamış işğalçı yadellilər bu savaşda bir qurşun belə işlətmədən istəklərinə nail olmuşdular. Mənbələrdə göstərilir ki, ingilis generalı Vavel Sarıqamış süqutundan sonra yazırdı: "Türk ordusu, dünyanın heç bir ordusunun yerindən tərpənməyəcəyi şərtlər altında müharibə edən ordudur. Bir nəfər belə ordusuna, vətəninə arxa çevirmədi".

Sarıqamışdakı rus ordu generalı Pietroviç isə xatirələrində bu mənzərədən dəhşətə gəldiyini yazırdı. Tədqiqatçılar yazır ki, rus generalının son illər üzə çıxarılan məktub və xatirələri tük ürpədir, ürək göynədir. Pietroviç Moskvaya göndərdiyi teleqramda yazır: "Onları təslim ala bilmədim, çünki əsir alınası heç kimsə yoxdur. Onlar bizdən əvvəl öz Allahlarına təslim olmuşdular". Sarıqamış hərəkatı bir qəhrəmanlıq dastanına çevrildi. Bu tarixi savaş dünya tarixində baş verənlərin heç biri ilə müqayisə belə olunmur.

Tarixin Sarıqamış uğursuzluğundan sonra Türkiyənin şərq hissəsi rus ordusunun işğalına, Qars və Ərzurum əhalisi isə rus və ermənilərin kütləvi qırğınına məruz qaldı. 1916-cı ilin fevralında Ərzurum, martda İsfahan, apreldə Trabzon, mayda Xoy və Dilman, iyunda Ərzincan, avqustda isə Mus rus ordusu və erməni terrorçu dəstələri tərəfindən işğal edildi. Ruslara arxalanan ermənilər türk-müsəlman kəndlərinə hücum edərək, əhalini qılıncdan keçirdilər.

Sarıqamış məğlubiyyəti Türkiyə ilə bərabər Azərbaycanın da məğlubiyyətinə səbəb oldu. Ruslara arxalanan ermənilər türk-müsəlman kəndlərinə hücum edərək, əhalini qılıncdan keçirdilər. Bu uğursuzluqdan güclənən erməni terrorçuları Azərbaycana üz tutdular, elimizi kənd-kənd, oba-oba yandırıb külə döndərdilər.

Ən dəhşətlisi isə budur ki, işğal olunmuş türk torpaqlarında, Anadolunun şərqində Ermənistan dövləti yaratdılar. Sarıqamış savaşında əsir götürülən minlərlə türk əsgərini Rusiya Cənubi Qafqaza gətirərək, o vaxt "Cəhənnəm adası" adlandırılan Nargində yerləşdirdi. Sarıqamış hərəkatında 90 min adam şəhid oldu. Təxminən 5000 nəfər ruslara əsir düşür. Məlumat üçün bildirək ki, Sarıqamış Türkiyənin cənub-şərqində, Qars əyalətində yerləşən və o qədər də böyük olmayan bir qəsəbədir. Dağlıq ərazidə yerləşdiyindən buraların qışı çox şaxtalı keçir, ilin altı ayı qar olur, yayı isə qısa və sərindir. Türkiyə bu əraziləri 1878-79-cu illərdə Balkan müharibəsində itirmişdi. O vaxtdan buralar 1920-ci ilə qədər çar Rusiyasının işğalı altında olub. Şanlı türk ordusu bütün çətinliklərə baxmayaraq, 1920-ci ildə Sarıqamış torpaqlarını düşmən işğalından əbədi azad edir. Bu gün Sarıqamış hərəkatından 109 il ötür. Faciədən 109 il keçsə də, Sarıqamış şəhidlərinin xatirəsi Türkiyə xalqı tərəfindən dərin ehtiramla anılır. Türkiyənin əsrarəngiz təbiətə malik Sarıqamış vilayətində indi geniş qış turizmi fəaliyyət göstərir.

**Nəzakət ƏLƏDDİNQIZI**

Təhlil

# Yeniyetməlik dövründə şəxsi gigiyena və hormonal dəyişim



***Yeniyetməlik dövrünə qədəm qoyan gənclərdə şəxsi gigiyena düzgün istiqamətləndirilməsə, bu, onların həm bədəni, həm də özünə inamında qalıcı izlər buraxa bilər. Mütəxəssislər də bu barədə yeniyetmələrə xəbərdarlıq edir ki, üzünüzü hər gün təmizləyin, saç düzləşdirici və saç üçün geldən vərdiş olaraq istifadə etməyin.***



SİA mövzu ilə bağlı araşdırma aparıb.

2000-ci illərin əvvəllərindən qadınların inkişafında yeni və narahatedici tendensiya tədqiqatçıların diqqətini cəlb etmişdi. Qızlar böyüyən sinə, cinsiyyət orqanlarını əhatə edən tüklər və menstruasiya ilə daha erkən yaşlarda yetkinlik yaşına daxil olurlar. Bəs bu tendensiyanın səbəbi nədir? Bəzi tədqiqatçılar bunun hormonların quruluşunu pozan kimyəvi maddələrlə əlaqədar olduğundan şübhələnirlər. Amma bu kimyəvi maddələr təkcə çirklənmiş sudan və ya zərərli mühitlərdən gəlmir, demək olar ki, hər gün istifadə etdiyimiz şampunlarda, makiyajda və əksər şəxsi qulluq məhsullarında da olur.

"Human Reproduction" jurnalında 3 dekabr 2018-ci ildə dərc edilən araşdırma, fərdi qulluq məhsullarında olan kimyəvi maddələrin yeniyetməlik dövrünün başlanğıcını sürətləndirə biləcəyi ehtimalını dəstəkləyir. Bu araşdırmada ictimai səhiyyə tədqiqatçıları 13 il ərzində bir qrup hamilə qadının və onların uşaqlarının sidikdə üç qrup kimyəvi maddənin konsentrasiyasını vaxtaşırı ölçdülər. Erkən yetkinliyin fiziki və ruhi sağlamlığa təsirini vurğulayan araşdırmanın nəticələri, qız uşağının erkən yetkinliyə girib-girməyəcəyini təyin edən faktorların uşağın doğulmasından əvvəl də dəyişə biləcəyinə diqqət çəkir. Başqa sözlə, hamilə qadının məruz qaldığı kimyəvi maddələr bu vəziyyətdə rol oynaya bilər.

Berklidəki Kaliforniya Universitetində ictimai sağlamlıq tədqiqatçısı olaraq çalışan və araşdırma aparan Kim Harley mövzu ilə bağlı bunları deyir: "Tədqiqatçılar uşaqlıq yolunun təsirinə məruz qalan kimyəvi maddələrin körpə doğulduqdan bir neçə il sonra da uşağın cinsi yetkinliyə daxil olmasına təsir göstərə biləcəyindən şübhələnirdilər. Bundan əlavə, bir çox qadınların bədənlərində ölçülə bilən miqdarda bu kimyəvi maddələr olduğundan, sual bir insanın kimyəvi maddələrə məruz qalıb-qalmaması deyil, nə qədər olmasıdır".

Tədqiqatçılar vərdiş halında, bədənin hormonal quruluşuna müdaxilə etdiyi iddia edilən üç növ hormonu pozan kimyəvi maddələrə diqqət yetirdilər. Bu qrupa esensiyada olan ftalatlar, kosmetikada konservant kimi istifadə olunan parabenlər və tədqiqat prosesində istifadə edilən antibakterial sabunlar da daxildir.

Los-Ancelesdəki Kaliforniya Universitetinin epidemioloqu Karin Michels sözügedən kimyəvi maddələrin cinsi yetkinliyi sürətləndirdiyini təsbit etdi: "Təkcə bu amillər böyük bir dəyişiklik yaratmaya bilər, lakin hormonları pozan bir çox kimyəvi maddələrin təsiri bir anda böyük bir dəyişikliyə səbəb olur".

Harlinin mövzu ilə bağlı fikirləri belədir: "Hətta yeniyetməlik dövründə kiçik bir dəyişim belə xərçəngə tutulma riskini artırır və bu fərq həm döş xərçəngi, həm də yumurtalıq xərçənginin ilkin mərhələlərində risk faktoru hesab olunur. Bununla belə, əldə etdiyimiz tapıntıların təsadüfi deyil, real olduğuna və müxtəlif populyasiyalara aid olduğuna əmin olmaq üçün daha çox araşdırma aparmalıyıq".

Michels, öz araşdırmasına əsaslanaraq, aşağı gəlirli insanların hormonları pozan kimyəvi maddələrə daha çox məruz qaldıqlarını və piylənmə ehtimalının daha yüksək olduğunu söylədi. Harley də bu təsirin doğruluğunu təsdiqləyərək, araşdırmasında hamilə qadınların və uşaqların yarıdan çoxunun artıq çəkili fərdlər olduğunu bildirdi. Bir çox valideynlər övladlarının fiziki və hormonal dəyişikliklərlə üzləşdiyini bilir



və onların kosmetik məhsullardan istifadə etmələrini bəyənmir. Belə ki, valideynlər övladlarının şəxsi gigiyenası üçün təbii üsullara daha çox üstünlük verirlər.

Tədqiqatın nəticələrinə görə, hamiləlik dövründə sidiklərində yüksək konsentrasiyada ftalat törəmələri olan qadınların qızları, sidiklərində az miqdarda ftalat olanların qızlarına nisbətən vaginal tüklənmə prosesinə daha tez başlayıblar. Eynilə, hamiləlik dövründə sidikdə yüksək konsentrasiyalı fenol olan qadınların qızları daha erkən menstruasiya görməyə başladılar. Tədqiqatçılar sınaqdan keçirilmiş bu qadınların doqquz yaşlı qızlarına baxdıqda, sidiklərində yüksək miqdarda paraben olan qızların sidiklərində bu kimyəvi maddənin daha az konsentrasiyası olan qızlara nisbətən üç yetkinlik əlamətinin daha erkən olduğunu gördülər.

Tədqiqatçıların tapıntılarını belə ümumiləşdirə bilərik: Sözügedən kimyəvi maddələrə nə qədər çox məruz qalırlarsa, uşaqlar bir o qədər erkən yeniyetməlik dövrünə qədəm qoyurlar. Məsələn, ananın ftalat səviyyəsi hər dəfə iki dəfə artdıqda, genital tüklərin böyüməsi 1,3 aya qədər irəliləyir.

Türk dermotoloq Armağan Kutlay yeniyetməlik dövründə gənclərə şəxsi gigiyena ilə bağlı tövsiyələr verib:

### Üzünüzü hər gün təmizləyin

Artan yağ istehsalı və ölü dəri qalıqları dəri məsamələrinin tıxanmasına, sızanaqların əmələ gəlməsinə səbəb olan əsas faktorlardır. Dərini artıq yağ və kirdən təmizləmək üçün səhər və axşam iki dəfə, dəri quruluşuna uyğun təmizləyici ilə üzün yuyulması sızanaqların əmələ gəlməsinin qarşısının alınmasında ən mühüm addımdır.

### Sızanaqları sıxmayın

Üzə çox toxunmamalı, sızanaqları heç vaxt sıxmamalı, məsamələri bağlayan məhsullardan istifadə etməməlisiniz.

### Depilyasiya kremləri ilə diqqətli olun

Yeniyetməlik dövründə oğlan və qızlarda müxtəlif nahiyələrdə tük artımı baş verir. İstənməyən tükləri azaltmaq üçün istifadə edilən hər üsul hər dəri tipi üçün uyğun olmaya bilər.

### Tərləməyə qarşı

Geyim seçimi tər qoxusunun azaldılmasında mühüm rol oynayır. Pambıqdan və ya digər təbii liflərdən hazırlanmış nəfəs ala bilən paltar geyinmək tərin buxarlanmasını asanlaşdırır. Sintetik parçalar pis qoxuya səbəb ola biləcəyi üçün belə geyimlərdən qaçınmaq lazımdır.

### Dezodorantla diqqətli olun

Tərləmə əleyhinə dezodorantlarda olan alüminium duzlarının kanserogen olub-olmaması müzakirə mövzusudur. Tərkibində maqnezium duzları olan dezodorantlar alternativ ola bilər.

### Saç düzləşdirici və geldən tez-tez istifadə etməyin

Yeniyetməlik dövründə baş dərisində artan yağlanma və tərləmə səbəbiylə saç baxımına ehtiyac artarkən, qışda iki-üç gündə bir duş qəbul etmək kifayətdir. Lakin yayda hər gün duş qəbul etmək lazımdır. Saç spreyi və gel kimi maddələr çox tez-tez istifadə edilməməli və saçda uzun müddət qalmamalıdır.



### Bu qidalardan uzaq durun

Balanslı və sağlam bəslənmənin dəri sağlamlığında son dərəcə təsirli olduğunu ifadə edən Dermatologiya mütəxəssisi Armağan Kutlay deyir: "Tərəvəz, meyvə, zülal və tam taxıl ehtiva edən bir pəhriz və bol su istehlak edilməlidir. Yüksək glisemik indeksli qidalar, xüsusilə də yüksək şəkər istehlakı, dəridə yağlanma və sızanaqların artmasına səbəb olacağı üçün nəzarətli şəkildə istehlak edilməlidir. Acılı qidaların həddindən artıq istehlakı pis qoxuya səbəb ola bilər. Həm ümumi sağlamlıq, həm də dəri sağlamlığı üçün siqaret və spirtli içkilərdən mütləq çəkinmək lazımdır".

### Günəşə çıxarkən bu qaydalara diqqət yetirin

Nəzarətsiz günəşə məruz qalmaq yalnız gün yanığı deyil, həm də ləkələrə səbəb olur. Xüsusilə sızanaq izləri və həşərat dişləməsi izləri günəşə məruz qaldıqdan sonra qaralmış və ləkələnə bilər. Kutlay bildirir ki, yayda günəşin zərərli ultrabənövşəyi şüalarına məruz qalmamaq üçün günəş şüalarının ən sıx olduğu saat 11:00-16:00 arasında mümkün qədər çölə çıxmamalıdır. Çölə çıxsanız belə kölgədə olmağa diqqət edin, papaq taxın və minimum SPF 30 olan günəşdən qoruyucu krem çəkin.

### Yeniyetməlik dövründə dəri niyə həddindən artıq reaksiya verir?

Ümumiyyətlə, hormonal dəyişikliklər ətrafında meydana gələn arzuolunmaz dəri formalarının birdən çox səbəbi var. Bu səbəblər arasında həddindən artıq stresli həyat, dərinin qeyri-kafi təmizliyi və balanssız qidalanma kimi önə çıxan faktorlar olsa da, dəridə artan yağ ifrazı da estetik narahatlıq və dəri həssaslığına səbəb olan vəziyyətlər yaradır.

### Yeniyetməlik dövründə dəriyə qulluq məsləhətləri

Yeniyetməlikdə hormonlar səbəbiylə bədəndə sürətli dəyişiklik gedir. Hormonal dəyişikliklərin dəri və saçlara, eləcə də rəftar və davranışlara təsiri dəri baxımının əhəmiyyətinin daha da artmasına səbəb olur.

Dəriyə qulluq onu təmizləmə ilə başlayır Yeniyetməlik dövründə arzuolunmaz dəri əmələ gəlməsinə qarşı ilk tövsiyəm dərini həmişə təmiz saxlamaqdır. Dərinizə uyğun təmizləyici vasitələrlə hər gün səhər və axşam dərinizi təmizləməkdən əlavə, həftədə iki dəfə, xüsusilə də gil maskalarla təmizləmə addımınızı gücləndirə bilərsiniz. Bu şəkildə məsamələrini mümkün qədər nəfəs almasına kömək etmiş olursunuz.

### Dərinizin nəm balansını qoruyun

Yeniyetməlik dövründə dəriyə qulluq üçün tövsiyə edilən ən əhəmiyyətli təcrübələrdən biri dərini nəmləndirmədir. Dərinizin növündən asılı olmayaraq hər bir dərinin öz xüsusiyyətlərinə uyğun nəmləndiricilərlə dəstəyə ehtiyacı var.

**Ayşən Vəli**

ARAŞDIRMA



# Aqressiya artır – ERMƏNİSTANDA




## Erməni analitik: İlham Əliyevin sözü Paşinyan üçün qanundur"

ŞƏRH-ANALİTİK

2018-ci ildə Ermənistanda baş vermiş ”məxməri inqilabın” nəticələrindən narazı olan və bununla yanaşı, Nikol Paşinyan hökumətinə qarşı




müxalifətdə olan cinahlar bu dəfə daha aqressiv münasibətlər sərgiləməyə başlayıblar. Bu dəfə erməni analitiki Hayk Usunç son günlər çoxsaylı müzakirələrə çevrilən, daha dəqiq desək, parlamentin spikeri Alen Simonyanın özünə cah-cəlallı ad günü keçirməsindən sonra bir sıra açıqlamalar verib.

### Hayk Usunç: ”Əclaflar zirvəyə qalxaraq bundan bəhrələnir”

“Məlum bir ifadə var: inqilabı romantiklər həyata keçirir, amma əclaflar onun bəhrəsindən həzz alır”, ibarəsini önə sürən analitik qeyd edib ki, 2018-ci ildə insanlar təmsil etdikləri ədaləti müdafiə etmək üçün küçələrə çıxdılar, lakin bu insanların duyğuları oğurlandı: ”Amma əclaflar zirvəyə qalxaraq bundan bəhrələnir. Bunu izləmək necə də iyrəncdir. Və bütün bunlar minlərlə qurbanın və Qarabağın itirilməsi fonunda baş verir”.

### Erməni ekspert: ”İndi Simonyan “inqilabın” bəhrəsini yeyir və o, bunu xüsusi şou ilə edir”

Usunç daha sonra xatırladıb: “Milli Assambleyanın sədri təyin edilən Alen Simonyan “məxməri inqilabın” canlı simvollarından biridir. O, “inqilabın” əsas simalarından biridir. İndi Simonyan “inqilabın” bəhrəsini yeyir və o, bunu xüsusi şou ilə edir”. Onun sözlərinə görə, sinizm və farazizm o yerə çatıb ki, Alen Simonyan itkin düşənlərin və ölən erməni əsgərlərin qohumları ilə görüş təşkil edir, onlara gecələr itkin düşənlər haqqında düşünərək yata bilmədiyini deyir, amma səhərisi gün hamı onun şübhəli maliyyə vəsaitindən danışır: ”Qış tətili günlərində o, Nikol və başqaları ilə birlikdə Yunanıstanın Mikonos adasında eyş-işrət məclisində görünüb. Məlum olur ki, Alenin, əslində, dərdi yalnız əylənməkdir, nəinki erməni xalqı”.

### Usunç: ”Mütləq güc “məxmər”ləri azdırıb”

O qeyd edib ki, Alen Simonyanın Yunanıstandakı məclisi ad günü ilə əlaqədardır: ”Onlar öz sevinclərini təmtəraqla ifadə etməkdən zövq alırlar. Bu sevinc isə Qarabağın itirilməsindən irəli gəlir. Mütləq güc “məxmər”ləri azdırıb. Onların arasında Alen Simonyan xüsusilə seçilir. “İnqilabçı” Simonyan öz vətəndaşına tüpürür, Mikonosda əylənir və Qarabağın itirilməsi ilə bağlı rəqs edir”.

Hayk Usunç bildirib ki, Alen Simonyan Nikolun özündən daha çox nikolizmlə məşğuldur. O, hətta Alen Simonyanı Nikol Paşinyandan daha çox ”azərbaycanpərəst” (?!-A.T.) olduğunu da iddia edib: ”Alen çox yaxşı bilir ki, Əliyevin sözü Nikol üçün qanundur. Alenin ”azərbaycanpərəst” bəyanatları həm onun düşüncəsinin nəticəsidir, həm də kreslosunu saxlamaq məqsədi güdür.

“İnqilabçı” övladdan başqa heç nə gözləməyə dəyməzdi”.

***Afət Tahirqızı***

P.S. Beləliklə, Ermənistanda daxili vəziyyətin gərginləşməsi fonunda bu kimi qarşıdurma və ittihamların da artması nəticə etibarı ilə kiçik toqquşmalara qədər inkişaf edəcəyini də istisna etmək olmaz. Lakin bütün bunların Azərbaycanla gözlənilən sülh müqaviləsinə hər hansı təsiri ola bilməz. Əks təqdirdə, Ermənistan daha çox itirməli olacaq. Görünür, hələ də bu reallığı ciddi dərk etməyən müəyyən bəlli qüvvələr haralarasa arxalanırlar. Amma unudurlar ki, həqiqətən də Azərbaycan Prezidenti İlham Əliyevin sözü Nikol Paşinyan üçün qanundur!





# Tik-Tok bağlanacaq?

**Elçin Bayramlı**

***Son dövrlər Azərbaycanda Tik-Tok sosial şəbəkəsində baş verən biabırçılıqlar cəmiyyətin intellektual və əxlaqlı hissəsində qəzəb yaradıb. Bu şəbəkədə baş verənlərə etiraz olaraq bir çox vətəndaşlar hökuməti bu platformanı bağlamağa çağırırlar. Bu platformadan istifadə edən istifadəçilər isə müxtəlif mövqelər ortaya qoyurlar. Hər tərəfin öz arqumentləri var. Məsələyə hər iki tərəfdən baxmağa çalışaq.***

Bağlanmaya etiraz edənlər deyir ki, Tik-Tok-da digər sosial şəbəkələr kimi adi boş platformadır və özü heç nə yaymır. Bütün şəbəkələrdə materialları yayanlar bizim insanlarımızdır. Üstəlik, bu şəbəkədə xeyli sayda faydalı kanallar da var- sağlamlıq və tibb sahəsində maarifləndirici, elmi-texnoloji məlumatları yayan, yaradıcılıqla bağlı videolar paylaşan, sosial problemlərin işıqlandırılması ilə məşğul olan və ya sadəcə xəbər yayan və s. Bir çox media orqanlarının, təşkilatların da burada kanalı var və insanlar onları da izləyir.

Bağlanmanı dəstəkləyənlər isə deyir ki, bu şəbəkədə milli-mənəvi dəyərlərimizə zərbə vuran, uşaq və yeniyetmələrin əxlaqını pozmağa yönələn hər cür murdar videolar, +18 materiallar çoxdur. Hətta ən biabırçı videolara burada rast gəlmək olur. Həm də bu şəbəkədə videolar ardıcıl göstərildiyindən və qarşına nə çıxacağını bilmədiyindən hər cür rəzil səhnələri görürsən. Beləliklə, bu şəbəkə cəmiyyətə faydadan çox zərər vurur.

Göründüyü kimi, hər iki tərəfin arqumentləri əsaslıdır. Toparlasaq belə bir reallıq ortaya çıxır- bəli, Tik-Tok sadəcə boş platformadır, özü heç nə yaymır, orada materialları yayan bizik. Burada çox sayda faydalı kanallar da var. Lakin paralel olaraq ən qəbuledilməz videolar da burada daha çox yayımlanır, çünki bu platforma bunun çünki unikal imkanlar təqdim edir. Deməк, faydalı tərəflərdən daha çox zərər vuran tərəfləri var.

Şəxsi fikrimə gəldikdə, onu da nəzərinizə çatdırmaq istəyirəm. Baxmayaraq ki, rəhbəri olduğum TvPress.Az-ın Tiktokda böyük kanalı var və orada paylaşılan tv çıxışlarımdan hissələr, həmçinin sosial problemlərlə, milli-mənəvi dəyərlərimizin müdafiəsi ilə bağlı digər videomateriallar yarım milyonadək baxılır, yenə də Tik-Tokun bağlanmasının tərəfdarıyam. Həm də təkcə onun yox, İnstagramın da. Xalqımızın son 30 ildə aparılan qlobal psixotron terrordan salamat qalan mənəvi dəyərləri də bu şəbəkələrdə məhv edilir, gənc nəsil avara, əyləncə və bambılılıq üzrə ümummilli çempionat iştirakçısı kimi yaşayan amorf məxluqlara çevrilir.

Bir çox ölkələr sosial şəbəkələrdə müəyyən filtrlər və məhdudiyyətlər tətbiq edirlər. Məsələn, elə Tik-tokun yarandığı Çində elə alqoritm tətbiq olunur ki, çinklilər zərərli kontentləri görmür, ancaq faydalı kontentlərə baxa bilirlər, üstəlik hər kəs üçün gündəlik 40 dəqiqəlik baxış limiti qoyulub. Azərbaycanda da hər hansı bir formada məhdudiyyətlərin qoyulmasına ehtiyac var. Bundan başqa, sosial şəbəkədə zərərli materiallar yayan şəxslər qanunla sərt cəzalandırılmalıdır.

Ümumiyyətlə, sosial şəbəkələr saxta və zərərli məlumat yığınıdır. Dəyərlərimizi məhv edən təbliğat meydanıdır. Zərəri faydasından min dəfə çoxdur. İstənilən vaxt bir ölkədə təxribatlar və vətəndaş müharibələri törətmək gücündədirlər. Ərəb baharını xatırlamaq kifayətdir.

Qlobal şəbəkələrin açarı bizim əlimizdə deyil. Bu mərkəzlər istədikləri informasiyanın sürətlə yayımlamasını təmin edir, özlərinə sərf etməyən məlumatların isə bloklanmasını təmin edirlər. Məsələn, Ermənistanın işğalçı siyasəti, ermənilərin terror və soyqırımları ilə bağlı məlumatları yayan şəxslərə qarşı məhdudlandırma və blok qoyulur. Çünki Ermənistan hakimiyyətinin sahibləri bu qlobal şəbəkələrin sahibləridir.

Şəxsən son 15 ildə mənim müxtəlif şəbəkələrdə olan bütün profil, kanal və səhifələrim bu səbəbdən dəfələrlə uzunmüddətli blok edilib və hazırda da hamısı məhdudiyyətlər altındadır. Yaydığım materialı, yazdığım fikri çox az adama göstərir.

Ümumiyyətlə, neçə illərdir Azərbaycanda bütün sosial şəbəkələrin bağlanmasını, bir milli sosial şəbəkə yaradılmasını təklif edirəm. Həmin şəbəkəyə ziyalılardan ibarət bir ictimai komissiyanın nəzarəti vacibdir. Əks halda olan-qalan dəyərlərimiz də məhv olub gedəcək, ortalıq saxta xəbər, dezinformasiya, təxribat xarakterli materiallarla dolacaq. Gənc nəsil də zombi kimi yetişəcək. Bunun qarşısı alınmalıdır.

# Bakının ən köklü məktəbinin məzunu Amerika mətbuatında

## Prezident İlham Əliyevin də ziyarət etdiyi 162 saylı məktəbin məzunları öz nəticələri ilə fərqlənir

***Azərbaycanın Dövlət Bayrağı ABŞ-ın Cənubi Florida Universitetinin Mühəndislik Kollecində asılıb. Bu barədə Amerikanın nüfuzlu FOX 13 televiziya kanalı material hazırlayıb, Amerika mətbuatında məqalələr dərc edilib.***

Materialda bildirilir ki, Cənubi Florida Universitetində tələbələrin ən çox sevdiyi bir ritualın əhatə dairəsinə dünyanın daha bir ölkəsi əlavə olunub. 152-ci dəfədir ki, kollecdə məzun olan tələbənin şərəfinə daha bir dövlətin bayrağı qaldırılıb.

Bayrağımızın Universitetdə asılmasının səbəbkarı Vaqif Əsədov 2021-ci ildə Bakı Şəhəri, Səbail rayonunda yerləşən 162 saylı orta məktəbi bitirib. Azərbaycanlı Vaqif Əsədov üçün Cənubi Florida Universitetinin Mühəndislik Kollecinin binasının foyesinə daxil olmaq təkcə proqram mühəndisi olmağı öyrənməkdən ibarət olmadı, artıq o tarixin bir parçası oldu. "İnsanların Azərbaycan haqqında məlumat əldə etməsinə töhfə vermək gözəl hissdir", – deyə V.Əsədov bildirib.

Mühəndislik Kollecinin bayraqlarla bəzədilmiş guşəsində bir çox aparıcı ölkələrin – Yaponiya, Koreya, Almaniya, İngiltərə və Braziliyanın bayraqları asılıb. Onların arasında Lixtenşteyn, Mavriki, Nepal, Uqanda və Qazaxıstan kimi ölkələr də var.

"Burada əsas məqsəd kollecin qonaqpərvər yer olduğunu nümayiş etdirməkdir," – deyə Cənubi Florida Universitetinin Mühəndislik Kollecinin dekan müavini Bernard Batson qeyd edib.

Amerika mətbuatında yayımlanan məqalədə və sözügedən televiziya kanalında yayımlanan sujetdə Azərbaycanda müasir memarlıqla yanaşı, qədim tarixə malik olan şəhərlərin mövcud olduğu bildirilir. Qeyd olunur ki, həmyerlisi Vaqif Məmmədov ilə birlikdə Cənubi Florida Universitetinin Mühəndislik Kollecinin yuxarı kurs tələbəsi Vaqif Əsədovun sayəsində kollecin bayraq kolleksiyasına 152-ci bayraq əlavə edilib. İndi bu dünya şöhrətli kollecdə ağ aypara və səkkizguşəli ulduzlu Azərbaycan bayrağı dalğalanır. "Bu, mənim həyatımda ən qürurlu anlardan biridir", – deyə V.Əsədov bildirib.



Qeyd edək ki, Vaqif Əsədovun 2021-ci ildə məzunu olduğu Bakı Şəhəri, Səbail rayonunda yerləşən 162 saylı orta məktəb Bakının ən qədim və köklü məktəblərindən biridir. Bu məktəbin məzunları ali məktəblərə imtahanlarda hər il böyük nailiyyətlər əldə edirlər. Məktəbin şagirdləri isə mütamadi olaraq beynəlxalq olimpiadalarda, müxtəlif bilik və idman yarışlarında qalib olub medallar qazanırlar. 1-ci Qarabağ müharibəsi qəhrəmanı, şəhid Etibar Allahverdi oğlu Əliyevin adını daşıyan bu təhsil ocağı Bakıda məzunları Vətən Müharibəsində ən çox şəhid vermiş məktəbdir. Məktəbin həyətində onlara xüsusi güşə düzəldilib və iri fotoları vurulub, haqqında məlumatlar qeyd olunub. Vətən Müharibəsində isə 162 saylı məktəb 4 məzununu şəhid verdi. Məktəbin əvvəlki illərdən olan məzunları Bilal Qəmbərov, Əli Tağıyev, İsmayıl Hüseynov, Cavidan Ağayev döyüşlərdə şücaət göstərərək qəhrəmanlıqla şəhid oldular.

Məlumat üçün qeyd edək ki, 107 yaşlı məktəbin binası 1917-ci ildə Bakı milyonçusu Murtuza Muxtarov tərəfindən inşa edilib. Məktəbdə qızlara təhsil verməklə yanaşı, toxumaq, tikiş tikmək kimi bacarıqlar öyrədilirdi. Məktəb 650 yerlik əsas korpusdan ibarətdir, 5 günlük və 2 növbəli iş rejimində işləyir. Hazırda 57 sinif komplektində 1689 nəfər şagird Azərbaycan və rus bölmələrində təhsil alır. 98 nəfərdən ibarət pedoqoji kollektiv üzvlərindən bir nəfər elmlər namizədidir.

Məktəbdə xarici dil kimi rus və ingilis dilləri tədris edilir. Müəllim-şagird nisbəti 1:13 nəfərdir. 2016-cı ildə yaradılmış "Kiçik Akademiya" AMEA-nın "Gənc Alim və Mütəxəssislər Şurası" nın dəstəyi ilə şagirdlərin potensial istedadınının aşkara çıxarılması, onların gələcək inkişafının düzgün istiqamətləndirilməsinin təmin edilməsi məqsədi ilə həyata keçirdiyi tədbirlər nəticəsində bir sıra uğurlara imza atıb. Belə ki, "KA" üzvü X sinif şagirdi Zeynəb Sadıxova "Sabahın alimləri" VI Respublika Olimpiadasında biologiya, İsgəndərov Rafael Rəşan oğlu fənn olimpiadalarında informatika fənni üzrə 3-cü yerin qalibi olub.

Digər "KA" üzvü Mahirə Əsədzadə I ixtisas qrupu üzrə DİM-in keçirdiyi qəbil imtahanında 700 bal toplayaraq,respublika üzrə maksimum nəticə göstərən abituriyentlərdən biri olub. Məktəbin məzunlarından iki nəfər qızıl və gümüş medala layiq görülüb. Məktəbdə zəngin maddi-texniki baza ilə təchiz olunmuş fizika, biologiya, kimya, informatika kabinetləri, ekosinif fəaliyyət göstərir. GÇH kabinetində isə mini kazarma yaradılıb. 11.09.2017-ci il tarixdə ölkə prezidenti cənab İlham Əliyev əsaslı təmirdən sonra məktəbə gələrək, görülmüş quruculuq işləri ilə yaxından tanış olub.

Hazırda məktəbin direktoru səlahiyyətlərini icra edən Nərgiz Ələkbərovanın sözlərinə görə, məktəbdə Təhsil Nazirliyinin "Rəqəmsal bacarıqlar" (Alqoritmika), STEAM pilot layihələri uğurla həyata keçirilir. STEAM şagirdləri "Hakaton 2021" ,"Makerthon 2021" ,"Makerthon 2022" ,"Smart School" yarışmasında, İzmir Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən beynəlxalq Online VEX Robotics yarışmasında, Bakı Ekspo Mərkəzində Təhsil Nazirliyinin dəstəyi ilə "STEAM Azərbaycan" layihəsi çərçivəsində STEAM Azərbaycan Festivalında (SAF) uğurla iştirak ediblər.

***Lalə Mehralı***

# "Makronun yanlış siyasəti nəticəsində Fransanın nüfuzu zəifləyir"



***"Fransanın son dövrlərdə Azərbaycana qarşı apardığı qərəzli münasibəti, apardığı qarayaxma kampaniyası hər tərəfdən aydın görünür. O cümlədən, Fransanın Ermənistandakı səfiri Olivye Dekotti islamofob, azərbaycanafob qarayaxmaları ilə məşhurdur.***

Bu da Fransa dövlətinin Azərbaycana qarşı siyasətinin tərkib hissəsidir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib. Onun sözlərinə görə, xüsusilə, son dövrlər Azərbaycan təhlükəsizlik orqanlarının Fransanın iki diplomatik pərdə altında işləyən kəşfiyyatçısını ifşa etməsi, onların Ukrayna, Gürcüstan, Moldova və Şərqi Avropada agentura şəbəkəsinin ifşa olunması çox böyük zərbə oldu: "Bu zərbədən sonra Makron Xarici Kəşfiyyat İdarəsinin rəisini dəyişməyə və baş naziri istefaya göndərməyə məcbur oldu. Əslində onun özü istefaya getməli idi. Çünki apardığı yanlış siyasət nəticəsində Fransanın dünyada mövqeyi getdikcə zəifləyir və nüfuzu aşağı düşür. Halbuki Fransa böyük ölkələrdən biridir. Lakin Makronun dövründə Fransa bütün mövqelərini itirməkdə davam edir. Fransa bilir ki, bunda Azərbaycanın da müəyyən əməyi olub. Çünki Qoşulmama Hərəkatının sədri Azərbaycandır. Azərbaycanın da apardığı düzgün siyasət nəticəsində Fransanın müstəmləkəçilik siyasəti ifşa olunur. Ona görə Fransa Azərbaycana qarşı qarayaxma kampaniyasını davam etdir".Politoloq qeyd edib ki, bugünlərdə ABŞ Dövlət Departamentinin dini etiqad azadlığı ilə bağlı yaydığı sərsəm bəyanatda da Azərbaycan kimi tolerant bir ölkəni qara siyahıya salmaq başda Ermənistan Milli Konqresinin rəhbərləri olmaqla bizi istəməyən qüvvələrin işləridir: "Amma onların bu cür addımları heç bir nəticə verməyəcək. Azərbaycan öz torpaqlarını azad edib. Hazırda həmin torpaqlarda bərpa-quruculuq işləri aparılır. Azərbaycanın yürütdüyü müstəqil siyasət öz bəhrəsini verir".

***Ləman Sərraf***

# "ABŞ-ın qərəzli yanaşması münasibətləri gərginləşdirir"

"Dini etiqad azadlıqlarının vəziyyətinə görə, ABŞ Dövlət Departamentinin müvafiq komissiyası tərəfindən Azərbaycanın 12 ən pis ölkə sırasına salınması olduqca təəccüblü və ziyanlı yanaşmadır. Həmçinin ABŞ-ın siyasəti üçün səhv nöqteyi-nəzərdir. Xüsusilə də bu yanlış mülahizələrə görə, Azərbaycanı 12 monitorinq olunmalı ölkənin sırasına daxil etməsi də yanlış yanaşmalardan çıxarılan səhv nəticələrdir". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib. Onun sözlərinə görə, Azərbaycan-ABŞ münasibətlərinin indiki şəraitinə baxsaq, bu cür qərəzli və əsassız yanaşmalar münasibətlərin istiləşməsinə olduqca mənfi təsir göstərir: "Çünki aylar öncə ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı qərəzli mövqeyi iki ölkənin münasibətlərini gərginləşdirmişdi. Son zamanlar Blinkenin köməkçisinin Azərbaycana gəlişi ilə münasibətlərin normallaşacağına ümid var idi. Lakin Blinkenin sözügedən 12 ölkə siyahısına Azərbaycanı da daxil etməsi münasibətləri daha da gərginləşdirərək, bir addım da geriyə atdı. Eyni zamanda, hesabatın milliyyətçi erməni olan bir şəxs tərəfindən hazırlandığı unudulmamalıdır. Bu fakt ABŞ-ın türk dövlətləri, Qafqaz ölkələrinə münasibətdə erməni lobbisinin təsirini altında olduğunu düşünməyə əsas verir.Azərbaycandakı hazırda mövcud olan tolerant mühiti detallarına qədər bilən istənilən şəxs ABŞ-ın bu hesabatının həqiqətən də yanlış və qərəzli olduğu qənaətinə gələ bilər. Çünki bu gün dünyanın Azərbaycan kimi ikinci bir ölkəsini tanımaq mümkün deyil ki, həmin ölkədə millətlər, dini etiklər arasında münasibətlər, həttə dövlətin müdaxiləsinin olması bir şəraitdə yüksək və sivil şəkildə xarakterizə olunsun. Bu gün hətta Azərbaycan dövləti bu məsələyə ümumiyyətlə nəzarət etməsə belə, ölkədə tolerantlıq və onun əsasları pozula bilməz. Azərbaycanda dinlərarası münasibətlərin tənzimlənməsi ilə dövlət orqanlarından daha çox, ölkədəki ictimai institutlar və rəy həlledici rol oynayır. Belə şəraitdə Azərbaycanı dözümsüz ölkələrin sırasına salmaq qərəzli və yanlış yanaşmadır".



***Səbinə Hüseynli***

# "Qərbi narahat edən "əminlik" amili"

*Azərbaycan ictimaiyyəti hər gün ölkənin ən önəmli siyasi hadisəsinə - Prezident seçkilərinə daha da yaxınlaşır. Təbii olaraq, ölkənin informasiya məkanı da hər yeni gün daha maraqlı və rəngarəng olur. Ölkənin informasiya məkanında seçki ilə əlaqədar müxtəlif düşüncələr, mülahizələr və fərziyyələr dolaşsa da, cəmiyyətdə seçkilərin nəticəsi ilə bağlı qəti və prinsipial əminlik mövcuddur. Qeyd olunan kontekstdə məhz "əminlik" ifadəsinə xüsusi diqqət yetirilməlidir. Əminlik amili xalqın fevralın 7-də seçimini müəyyən edəcək əsas anlayışdır.*

Azərbaycan xalqı olduqca arif, təcrübəli və praqmatikdir. Odur ki, həyati əhəmiyyətə malik məsələlərlə bağlı qərarların qəbul edilməsi sistemində gələcəyə əminlik amili bütün dövrlərdə xalqımız üçün önəmli prioritetlərdən biri olub. Məhz sözügedən amil əsas səbəblərdən biri olub ki, Azərbaycan xalqı 1993-cü ildə bəlalardan canını qurtarmaq və dövləti xilas etmək üçün üzünü Ulu Öndər Heydər Əliyevə tutub və gələcəklə bağlı olan bütün ümidlərini onun adı ilə bağlayıb.

Bu fikirlər politoloq A.Adilin ""Qərbi narahat edən "əminlik" amili" sərlövhəli məqaləsində yer alıb. SİA məqaləni təqdim edir. Seçkilərin tarixi elan olunan gündən etibarən radikal siyasətciklərin "kirli" siyasi texnologiyalarının ifşasına həsr olunmuş bəzi mülahizələrimizi vaxtaşırı bölüşürük. Məkrli niyyətlər ifşa olunmalı və qərəzli manipulyasiyaların qarşısı mütləq alınmalıdır. Seçkilərlə bağlı Qərbin manipulyatorları tərəfindən yazılmış bütün ehtimal olunan ssenarilər bəllidir, müxtəlif dövrlərdə bir sıra ölkələrdə bu ssenarilər təkrarlanır. Bəzi ölkələrin uğursuz təcrübəsində biz bu ssenarilərin faciəvi nəticələrlə bitməsinə dəfələrlə şahidlik etmişik. Birmənalı olaraq deyə bilərik ki, Qalib Azərbaycan xalqı məkrli niyyətlərin reallaşmasına imkan verməz. Azərbaycan kimlərinsə geosiyasi ambisiyalarının savaş poliqonuna çevrilməyəcək. Böyük uğurlara qapı açan Qələbəmiz və cəmiyyətdə yaşanan həmrəylik ruhu bütün təxribatlara qarşı ideal immunitetdir.

Buna baxmayaraq, əlbəttə, biz xalq və cəmiyyət olaraq öz siyasi sayıqlığımızı mütləq qorumalıyıq. İnformasiya təxribatları fasiləsiz davam edir. Qərbin "kirli" siyasi texnologiyalarının bütün potensialı səfərbər olunur, öz xalqına düşmən kəsilmiş şəxslər isə könüllü şəkildə islah olunmayacaq. Təəssüf ki, vətənşivənlərin qərəzli demaqogiyası sərhəd və əxlaq tanımır. Onların ritorikası milli maraqları və həqiqətləri tərənnüm etmir, əksinə, bütün mülahizələr yalnız xəstə ambisiyaların təsiri ilə diktə olunur.

Bilməliyik ki, siyasi texnologiyaların müəyyən proseslərin gedişatına təsir etmək mexanizmləri standart olsa da, Qərbin polittexnoloqları bəzi "yerli xüsusiyyətləri" nəzərə almaq məcburiyyətindədirlər. Elə məhz qeyd olunan məqsədlə Qərbin müəyyən institutları tərəfindən konkret xalqın mental xüsusiyyətləri də ətraflı tədqiq olunur. "Yerli xüsusiyyətləri" nəzərə alaraq standart xarakterli təxribat ssenarilərində korrektələr aparılır.

Xatırladaq ki, siyasi şivənlərin seçki ilə bağlı təxribatlar şousu "boykot-boykot" oyununun elan olunması ilə başlayıb. Heç şübhəsiz ki, "boykot" radikalların seçkilərlə bağlı təxribatlarının yalnız biri, bəlkə də birincisidir. Qeyd olunan təxribat növünün məqsəd və xüsusiyyətləri haqqında əvvəlki yazılarda bəhs olunub. Təkrarçılığa ehtiyac yoxdur, hər şey su kimi aydındır. Bu cür oyunların strateji məqsədi müxtəlif manipulyasiyalara yol açan emosional gərginliyin cəmiyyətdə süni şəkildə artırılmasıdır.

Radikalların növbəti "kirli" texnologiyaları məhz "cəmiyyət qarşıdan gələn seçkilərə maraq göstərmir" kimi qərəz dolu ifadə ilə bağlıdır. Yumşaq desək, təbəssümə səbəb olan siyasişivənlərin sözügedən absurd




xarakterli informasiya hoqqası, əhalinin ictimai şüurunda bilavasitə seçkilər ilə bağlı yanlış stereotiplərin formalaşdırılması niyyətləri ilə bağlıdır. Bu cür yanaşmanın sosial şəbəkələrdə yayılması üçün durmadan uğursuz cəhdlər göstərilir. Qərəz və xəstə ambisiyalar səbəbindən bu boşboğaz "vətənşivənlər" həqiqətləri görmək istəmirlər.

Bəli, fevralın 7-də ediləcək seçim ilə bağlı cəmiyyətdə heç bir tərəddüd yoxdur. Azərbaycan xalqı öz seçimində əmindir. Məhz elə bu əminlik Qərbi çox narahat edir. Şübhə və çoxlu sayda açıq sualların mövcudluğuna səbəb olan Qərbin, o cümlədən ABŞ-ın seçki modeli xalqın açıq dəstəyini əks etdirmir. Bəzən qalib tərəf cəmi 1-2 faiz fərqlə müəyyən olunur, seçkilər nəticəsində isə cəmiyyət ideoloji baxımdan parçalanır. Məhz elə bu səbəbdən də "demokratiyanın flaqmanı" hesab olunan ölkələrdə "xalqın mütləq dəstəyinə sahib olan siyasi lider" ifadəsi ağrılı allergiyaya səbəb olur. Həmin cəmiyyətlər bu keyfiyyətdən məhrumdurlar. Əlbəttə ki, bu halda onlar üçün ən rahat yol – diqqətin yayındırılması və digər ölkələrdə keçirilən seçki proseslərini tənqid etməkdən ibarətdir. Son illərin tendensiyası göstərir ki, konkret cəmiyyətlərdə yaşanan milli həmrəylik Qərbin bütün geosiyasi strategiyalarının hədəfindədir.

"Cəmiyyətdə qarşıdan gələn seçkilərə maraq yoxdur" ifadəsi isə qərəz və açıq yalandan başqa bir şey deyil. Seçkilərdə namizəd olaraq iştirak etmək istəyən şəxslərin sayı artır, müvafiq platformalar yaradılır, hökumət özü seçkilərin təbliğatını aparır. İnformasiya məkanında mövcud materialların ən azı üçdəbiri bilavasitə seçkilərlə bağlıdır, sosial şəbəkələr isə ümumiyyətlə "seçki cəngəllikləri"nə bənzəyir və s. Əlbəttə, sağlam rəqabət apara bilməyən, çamıra batmış və öz xəstə ambisiyalarında boğulan xain qüvvələrin yeganə ümidi "kirli" texnologiyalardır. Digər ölkələrdə tətbiq olunmuş ssenarilərə əsasən növbəti mərhələlərdə iqtidar nümayəndələrinin, xüsusən bilavasitə seçki prosesinə cəlb olunan şəxslərin ünvanına şər və böhtan atılmasına da şahidlik edəcəyik.

Heç şübhəsiz ki, siyasişivənlərin bütün bu yaramazlıqları onlara heç bir fayda verməyəcəkdir. Azərbaycan xalqı Qələbə seçkilərində iştirak edəcək və öz səsini əminli gələcəyə verəcək. "Kirli" siyasi texnologiyaların ifşasına davam...

# "ABŞ-ın qeyri-obyektiv dəyərləndirməsi yalnız siyasi motivlərlə bağlıdır"

***"ABŞ Dövlət Departamentinin dini azadlıqların vəziyyəti ilə bağlı hesabatında Azərbaycana qarşı irəli sürülən iddiaların ölkəmizdəki reallıqla heç bir əlaqəsi yoxdur. Tarix boyu Azərbaycanda və eləcə də bütün türk torpaqlarında hökm sürən tolerantlıq və insanpərvərlik dünyanın bütün ölkələrində ən yüksək dini azadlıq örnəyi kimi qəbul olunub və Azərbaycan multikulturalizmi Qərb dünyasında öyrənilən və tətbiq olunmasına çalışılan bir fenomendir.***




Bunların fonunda Dövlət Departamentinin belə bir qeyri-obyektiv dəyərləndirməsi yalnız siyasi motivlərlə bağlıdır". Bu sözləri SİA-ya Milli Məclisin deputatı Cavanşir Feyziyev deyib. Onun sözlərinə görə, keçən ilin 19-20 sentyabr tarixlərində Azərbaycanın Qarabağ ərazisində keçirdiyi antiterror tədbirləri digər güc mərkəzləri kimi ABŞ-ın də maraqlarına uyğun deyildi: "Üstəlik, Azərbaycanın xarici işlər nazirləri səviyyəsində Vaşinqtonda keçiriləsi nəzərdə tutulmuş görüşdən imtina etməsi də ABŞ Dövlət Departamentini qıcıqlandırmaya bilməzdi. Bu kimi hallar ABŞ administrasiyasının Azərbaycana qarşı qeyri-obyektiv iradlar irəli sürməsi ilə müşaiyət olunur. Əlbəttə, bəzi amerikalı diplomatlar bu qiymətləndirməni ermənilərin Qarabağı tam şəkildə tərk etməsi ilə izah etməyə çalışacaqlar. Amma bütün dünyaya məlumdur ki, ermənilərin Qarabağı tərk etməsi heç də dini dözümsüzlüklə bağlı deyil. Onlar Ermənistan hakimiyyətinin və Qarabağda kök salmış separatçıların uzun illər davam edən terror və işğal siyasətinin qurbanlarıdır. Buna görə isə bütün məsuliyyəti Azərbaycan yox, məhz Ermənistan və Qarabağ erməniləri özləri daşıyır".

Deputat bildirib ki, bütün bunları ABŞ Dövlət Departamenti də çox yaxşı bilir: "Lakin biz də onu bilirik ki, "realpolitik" ənənələrinə sadiq ABŞ öz maraqlarını təmin etmək üçün uydurma səbəblər göstərməklə digər dövlətlərə qarşı təzyiq siyasətindən imtina etməyib və etmək fikrində də deyil. Ona görə də bu cür qeyri-obyektiv dəyərləndirmələrə təəccüblənmək lazım gəlmir".

**Ləman Sərraf**

# "İşğaldan azad edilmiş bütün ərazilərdə quruculuq işləri gecə-gündüz davam etdirilir"




***"Erməni-faşist birləşmələri 1990-cı illərin əvvəllərində təkcə Azərbaycan torpaqlarını işğal etmədilər, bu torpaqları yerlə-yeksan etdilər. Həmin ərazilərin dini, tarixi abidələri, məktəbləri və yaşayış binaları tamamilə dağıdıldı.***

Bununla da düşmən əhalinin gözünü qorxudaraq, onların bir də qayıtmaması üçün ən qəddar üsullarından istifadə etdilər. Amma düşmən yanıldı, anlamadılar ki, bir zaman düşmən bu torpaqların sahibi olsaydılar, darmadağın etməzdilər fikirləri və sualları ilə qarşılaşacaqlar. Təbii ki, 44 günlük Vətən müharibəsi nəticəsində düşmən darmadağın edildi və Azərbaycan torpaqları azad olundu. Cənab Prezident İlham Əliyev 17 il ərzində yetişdirdiyi əsgərləri ilə Şuşanı azad etdi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.

Deputat bildirib ki, 2020-ci ilin 44 günlük müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərlə bağlı dövlət proqramları hazırlandı: "Bu gün dünya Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işlərinə heyran qalır. Dünyada çox az dövlətlərə nəsib olur ki, 30 illik işğaldan sonra torpaqlarını azad etsin və sürətli bir şəkildə torpaqlarda bərpa və yenidənqurma işləri aparsın. Görülən işlər Azərbaycan dövlət başçısının iradəsi və dövlətimizin gücü sayəsində baş tutur. Bunun nəticəsidir ki, işğaldan azad edilmiş bütün ərazilərdə quruculuq işləri gecə-gündüz davam edir.

2024-cü ilin fevral ayında Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək və dünənə qədər məcburi köçkün olan insanların da bir hissəsi seçkilərdə iştirak edəcək. Bütün bunlar göstərir ki, Azərbaycan xalqı zəhmətkeş, qəhrəman xalqdır. 2023-cü il dekabrın 31-də dövlət başçısı xalqa müraciəti zamanı da bu məsələlərə toxundu. Bir daha qeyd olundu ki, qarşıya qoyulmuş planlar uğurla davam etdirilir. İşğaldan azad edilmiş ərazilərimizdə 2024-cü ildə bərpa və yenidənqurma işləri daha sürətli şəkildə davam edəcək".

**Səbinə Hüseynli**

# ABŞ dünyada dinlərarası qarşıdurma yaratmağa çalışır

*Azərbaycan bütün sahələrdə inkişaf edən azad, demokratik dövlət kimi dünyanın aparıcı ölkələri sırasında yer alır. Sosial, iqtisadi, hərbi, diplomatik uğurlarla yanaşı, Azərbaycan həm də dini və milli tolerantlığın hökm sürdüyü dövlət kimi tanınır. Bunun da əsası var. Başlıcası, dövlət bütün dinlərə bərabərhüquqlu şərait və imkanlar yaradıb, dini icmaların maddi-texniki təminatının yaxşılaşdırılması, dini mərkəzlərə maliyyə yardımlarının göstərilməsi üçün müvafiq işlər həyata keçirib.*



Azərbaycan Respublikasının Konstitusiyasının 18-ci maddəsində dövlət-din münasibətləri öz hüquqi statusunu alaraq dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabərliyi elan edilir, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliğinin qadağan olması göstərilir. Konstitusiyanın "Bərabərlik hüququ" adlanan 25-ci maddəsində deyilir: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir".





Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tarixi çıxışlarının birində ölkəmizdəki yüksək tolerantlıq hissi barədə demişdir: "Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri birgə yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir". Ulu Öndər Heydər Əliyev onu da bildirmişdir ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan Respublikasının ən böyük sərvəti, bəlkə də ən birinci sərvəti burada uzun əsrlər bir yerdə yaşamış, dostlaşmış, qardaşlaşmış müxtəlif xalqların birliyidir".

### ABŞ kimi bəşəriyyət üçün təhlükə mənbəyi olan dövlətlərin siyasəti başqa ölkələrin uğurlarını inkar etmək üzərində qurulub

Bu gün dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları dini etiqad azadlığından, dövlət-din münasibətlərindən lazımınca yararlanırlar. Ölkə Prezidenti, Yenilməz Sərkərdə İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmizdə yaşayan bütün millətlərin, etnik azlıqların dini inancına, dilinə, mədəniyyətinə bərabər səviyyədə hörmət və ehtiramla yanaşılır, adət-ənənələrin, el şənlikləri və mərasimlərin həyata keçirilməsinə lazımi şərait yaradılır. Məhz Azərbaycan xalqının xoşbəxtliyi bütün dinlərin bərabərhüquqlu şəkildə birgə fəaliyyət göstərməsində və bütün ölkə vətəndaşlarının dini inanclarına, etiqad azadlıqlarına hörmət və ehtiram göstərilməsidir. Təəssüf ki, bəzi ölkələr, xüsusilə də, ABŞ kimi dünyada dinlərarası qarşıdurmalar yaratmaq üçün hər cür iyrənc vasitə və üsullardan istifadə edən ölkələr görmək istəmirlər. Daha doğrusu, dövlət siyasətləri Azərbaycanın nümunəvi tolerantlıq hissini görməyə imkan vermir. Bu da onu təsdiq edir ki, ABŞ kimi bəşəriyyət üçün təhlükə mənbəyi olan dövlətlərin siyasəti başqa dövlətlərin uğurlarını inkar etmək üzərində qurulub. Bunu bu yaxınlarda ABŞ Dövlət Departamentinin dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı illik hesabatının Azərbaycana aid hissəsində əsassız, reallıqla heç bir əlaqəsi olmayan və qərəzli iddialardan ibarət olan hesabatı da təsdiqləyir. Təbii ki, dünyada dini və milli tolerantlığın hökm sürdüyü Azərbaycana qarşı belə iddiaların heç bir əsası yoxdur. Çünki Azərbaycan hər bir sahədə, o cümlədən, dini və milli tolerantlığın hökm sürdüyü nümunəvi dövlətlərdəndir. Söz yox ki, qərəzli hesabatın hazırlanaraq yayılmasında ABŞ hakimiyyətini oyuncaq kukla kimi əllərində oynadan erməni lobbisinin xüsusi rolu olub. Artıq təsdiq olunub ki, hesabatın Azərbayacana aid olan hissəsi dövlət komissiyasının rəhbəri Daniela Aşbaxyan olan ictimai xidməti tərəfindən hazırlanıb. Bu xanım Amerika Erməni Assambleyasının rəhbər vəzifəli şəxslərindən biri olub. O, həm də Livanın Los-Ancelesdəki konsulluğunda işləyib. Çox maraqlıdır ki, hesabatda Azərbayacana qarşı belə kəskin mövqe Qarabağda separatçılara qarşı 2023-cü ilin sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri nəticəsində yaranmış vəziyyətə əsaslanır. Bu zaman həmin ərazilərin 30 il işğal altında saxlanması və yüz minlərlə azərbaycanlının öz doğma torpağından qovulması, 60-dan artıq məscidin, dini-mədəni obyektlərin darmadağın edilməsi nəzərə alınmır. Üstəlik, bu hesabata dinlə heç bir əlaqəsi olmayan Qubad İbadoğlu, Abzas media və s. bu kimi işlərin də daxil edilməsi onun konkret siyasi məqsədə xidmət etdiyini göstərir. ABŞ Dövlət Departamenti bu hesabatla növbəti dəfə öz qərəzini, ədalətsizliyini bütün dünyaya nümayiş etdirdi. Nə Azərbaycan hakimiyyəti, nə də Azərbaycan xalqı bu tipli cızmaqaraları ciddi hesab etmir. Azərbaycan xalqı, o cümlədən, demokratik düşüncəli əksər dünya xalqları da bilir ki, ABŞ-ın xarici siyasət kursu, dövlətlərə münasibəti müəyyən hallarda erməni lobbisinin maraqlarına söykənir.

### Azərbaycana qarşı qərəzli erməni lobbisinin istəyi ilə hazırlanıb

Azərbaycanda el arasında bir deyim var: "Öz gözündə tiri görmür, başqasının gözündə tükü sezir". ABŞ dünyada insan hüquq və azadlıqlarının pozulduğu, insanların dini baxışlarına görə təqib olunduğu dövlətlərin siyahısında ön yerlərdən birini tutduğu halda Azərbaycan haqqında yanlış informasiyalar yaymağa çalışır. Bu, o dövlətdir ki, bütün dünyada çoxsaylı müharibələr və qarşıdurmaları alovlandırır, milyonlarla insanın ölümünə, qaçqın vəziyyətinə düşməsinə, səfalət içində yaşamasına baiskar olur. Məhz bu ölkədə dini və irqi ayrı-seçkilik həm tarixi, həm də cari reallıq kontekstində ən çox tənqidə məruz qalır. ABŞ-da dövlət səviyyəsində aparılan vəhşi siyasət nəticəsində demək olar ki, hinduların nəsli kəsilməkdədir. Zəncilər isə ölümqalım savaşı aparsalar da böyük itkilərə məruz qalmaqdadırlar. Faktlara istinadən demək olar ki, yerli əhali olmuş hindular haqları və hüquqlarının müdafiəsi uğrunda apardıqları savaşda böyük itkilərə məruz qalmışlar. Təsdiq olunmuş faktlara görə, ABŞ-da 23 milyondan çox hindulu öldürülüb ki, bu da bəşər tarixinin ən genişmiqyaslı soyqırımı hesab olunur. Hazırda hinduların sayı ölkə əhalisinin cəmi 0,9 faizini təşkil edir. Zəncilər də təzyiq və təhdidlərdən xilas ola bilmirlər. Bəzən onları adam hesab etmirlər, müəyyən dövlət binalarına, kafe və restoranlara buraxmırlar. Həm hindular, həm də zəncilərin dini azadlıqları yoxdur. İstəkləri isə nəticəsiz qalır. Çünki hindulara və zəncilərə qarşı 1622-ci ildən başlayan soyqırımı siyasətindən hazırkı hökumətlər imtina etməyiblər.

***İLHAM ƏLİYEV***



# Lap hənanın yeridir: xına demə, möcüzə de

## Qoturdan iltihaba, çibandan suçuçəyinədək hər dərdə dərmandır



***Xına, başqa adı ilə həna qədim dövrlərdən bəri həm gözəllik, həm də sağlamlıq məqsədi ilə istifadə edilən bir ağacın yarpaqlarından əldə edilən maddədir. Elə indi də toy və nişanların baş qəhrəmanı – gəlinin əllərinə müxtəlif milli ornamentləri əks etdirərək bəzək vurulan xına haqqında bilinməyən və bilinənləri bu yazıda topladıq.***

### O sadəcə bitki yarpağıdır

Xına isti ölkələrdə yetişən xına ağacının yarpaqlarını qurudaraq əldə edilir. Qurudulan yarpaqlar sonra üyüdülür, toz halına salınır və bu da xına olur. İstifadəsi zamanı bu toza su və ya qara çayın dəmləməsini qataraq yumşaldırlar. Azərbaycanda yetişməmiş qozun yaşıl qabıqlarını dəmləyib xınanı onunla islatmaq adəti də var, qadınlar belə daha parlaq xına əldə etmiş olurlar. Xına hazırda Hindistan və Ərəb yarımadası başda olmaqla bir çox Asiya ölkəsində məşhurdur.

Uzun illər dekorativ ağac kimi əkilən xınanın yarpaqları sağlamlıq üçün də istifadə edilir. Dəri, saç və dırnaq xəstəliklərinin müalicəsində istifadə edilən xına bir çox dəri xəstəliklərini sağaldır. Tərkibindəki maddələr dərinin qalınlaşmasına kömək edir, incə dərili insanların gec sağalan yaralarına xına tətbiqi xeyirlidir. Həmçinin xına dəri hüceyrələrinin qorunmasında faydalıdır.

### Nəyə xeyiri yoxdur ki?

Saçlar üçün hənanın faydaları saymaq bitməz, tökülən tüklərin yerindən yenisini çıxarır, saç tökülməsini dayandırır, qırılmaları aradan qaldırır, saç dərisini möhkəmləndirir, kəpəyi yox edir, saçları nəmləndirir, parlaqlıq verir, uzadır. Cod tükləri yumşaldan xına saçlara ipək yumşaqlığı verir. Saçları daha çox parıldatmaq, yumşaltmaq üçün çox miqdarda istifadə etmək məsləhət görülür.

Xınanın ağrı kəsmək kimi bir bacarığı da var, hər hansı bir səbəblə yaranan bədən və baş ağrılarını müalicə edir. Sadəcə ağrı olan bölgəyə xına yaxmaq kifayətdir. Həna yanıq yaralarına da faydalıdır, həm ağrını və yanmanı azaldır, həm də yaranın sağalmasını sürətləndirir. Bu möcüzəli bitki açıq yaralara belə şəfa verir, yaranın ağrısını azaldır, dərinin tez bağlanmasını təmin edir. Ayağınız burxulanda, biləyiniz çıxanda, sümüyünüz qırılanda ondan ağrıkəsici kimi istifadə edə bilərsiniz.

Dırnaqlara faydasına görə həna qədimdən bəri geniş istifadə edilir. Xüsusilə də çatlayan və qırılan, üzəri soyulan dırnaqlar üçün xınanın faydaları saymaqla bitməz. Xınanı nisbətən qatı isladıb dırnaqların üzərinə qoyduqda bu problemləri aradan qaldırır. Əgər xınanı zeytun yağı ilə isladıb dırnağınıza tətbiq etsəniz daha çox xeyir əldə etmiş olarsınız.

### Qoturu belə müalicə edir

Xına qotur xəstəliyinin sağaldılmasında da faydalıdır. Heyvanlarla təmasdan yaranan bu dəri xəstəliyi zamanı xına tətbiqi problemi həll edir. Xına ağacının yarpaqları qaraciyərin dərmanıdır, eyni zamanda, sarılıq xəstəliyi zamanı da istifadə edilir.

Hənanın spesifik qoxusu var, bu qoxu mərkəzi sinir sisteminə olduqca müsbət təsir edir, sinirləri rahatladır, stressi azaldır. Baş ağrısı zamanı xına çiçəkləri sirkə ilə qarışdırılaraq tətbiq edildikdə ağrını kəsir. Xınanı isladıb alın nahiyəsinə yaxmaqla da ağrını kəsmək olar.

Alternativ tibbdə bir çox məqsədlə istifadə edilən xınanı bal və ya gül yağı ilə qarışdırdıqda bel ağrılarına da kömək etdiyi məlumdur. Həna sızanaq və civzələrin yox edilməsində də istifadə edilir. Xınanı suya atıb qarqara etdikdə diş ətindəki iltihablanmanı aradan qaldırır. Ağız kandidozunu belə müalicə edən həna ağız boşluğundakı mikrobları belə təmizləyir. Bəzi qədim mənbələr cinsi istəyi artırdığını yazır. Bundan əlavə dabanların çatlamasının qarşısını alır, suçiçəyi çıxarmış uşaqların yarasını tez qurudur, ayaqlardakı göbələyi sağaldır.





### Ayaq qoxusundan xilas edir

Bir çox kişinin ayaq qoxusu problemi olduğunu bilirik və bu problemi xına ilə həll etmək mümkündür. Sadəcə, hər axşam ayağınıza isladılmış xına yaxın, üzərindən polietilen bir torba geyinin, sonra da corab geyinərək səhərədək xınanı ayağınızda saxlayın, səhər yuyun. Bunu 6-7 gün təkrarlayın.

Dəri yaralarının, xüsusilə çibanın qarşısını alan xına zeytun yağı ilə qarışdırılaraq baş dərisinə çəkildikdə beyin şişinin qarşısını belə almaq gücünə malikdir. Antibakterial gücü hənanın iltihablanmış yaraları sağaltmağına kömək edir. Xərçəng şişlərinin əmələ gəlməsinin qarşısını alan xına dalaq sağlamlığı baxımından da xeyirlidir.

Ümumiyyətlə, xınanın daxilə qəbulundan başqa hər cür istifadəsi mümkündür, bəzi allergik problemləri olan insanlara xına tətbiqini ehtiyyatla etmək məsləhət görülür. Dəridə qızarma, səpki kimi problemlər yarada bilər, amma bu yalnız allergik problemi olan insanlar üçün keçərlidir. Udulması məsləhət görülmür, hamiləlikdə isə qətiyyən yolverilməzdir, çünki xınanın tərkibində hamiləliyi yarımçıq qoyan, uşaqsalmaya səbəb olan maddələr var.





### Xınanı necə tanımalı?

Hazırda satışda xınanın 4 növünü görmək olar: rəngsiz, ağ, rəngli və klassik xınalar. Rəngsiz xına - emal zamanı piqmenti yox olan xına yarpaqlarının ekstraktıdır. Bu növ xınanın əsasən müalicəvi məqsədlə istifadə edilməsi məsləhət görülür. Rəngsiz xına, saçının rəngini dəyişmək istəməyən, yalnız saçlarının müalicə və qulluğa ehtiyacı olan xanımlar üçün ideal vasitədir.

Hal hazırda satışda ağ xına da görmək olar. Bu xına növü - saçları 5-6 rəng tonu aça biləcək adi boya vasitəsidir. Nəzərinizə çatdırırıq ki, bu xınanın, İran xınası ilə heç bir əlaqəsi olmayıb, heç bir müalicəvi xüsusiyyətə malik olmamaqla bərabər, hər bir kimyəvi boya kimi saç strukturunun korlanmasına səbəb olan bir vasitədir. Ona görə də almaq məsləhət deyil.

Kosmetik bazarda müxtəlif rəng çeşidinə malik rəngli xınalar var, çəhrayı, tünd qırmızı, göy, bənövşəyi hənalar da ağ xına kimi zərəli xüsusiyyətə malikdir. Bu boyaq maddəsinin tərkibində təbii xına olmasına baxmayaraq, xınana miqdarı boyanın tərkibində olan sintetik maddələrin miqdarının yanında gözəgörünməzdir.

Nəhayət, ən çox yayılan və ən təbii olan həna - İran xınası. Bu növ xına saçlarınıza rəng verəcək. Əgər saçlarınızın təbii rəngi açıqdırsa, boyandıqdan sonra rəng qırmızı və hətta narıncı ola bilər. Lakin saçlarınızı kimyəvi vasitələrlə sarı rəngə gətirmisinizsə, o zaman, xına heç bir nəticə verməyə bilər. Buna səbəb xınanın təbii komponentlərinin kimyəvi boyaq maddəsi ilə uyğunsuzluğudur.

Xınanın hər bir saç rəngi üçün gözlənilməz rəng verə biləcəyini artıq bildiyimizə görə, saçlarınıza xına qoymazdan əvvəl, test olaraq bir neçə saç telinizə çəkin, əldə olunan nəticəni gördükdən sonra bütün saçınıza tətbiqə başlayın. Həmçinin unutmayın ki, xınanı heç bir kimyəvi boyaq vasitəsi ilə açmaq mümkün deyil. Yalnız boyanmış saçların uzanmasını və özü-özünü yenilənməsini gözləmək lazım olacaq.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili-Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
9 yanvar
2024-cü il


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bakıda kurort turizminin inkişafı üçün ərazi ayrılıb



**2040-**cı ilədək Bakıda kurort turizminin inkişafı üçün təxminən 169,8 ha yeni inkişaf ərazisi ayrılıb. SİA-nın xəbərinə görə, bu, Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planında əksini tapıb. Abşeron yarımadasında Xəzərin şimal və cənub sahillərində müxtəlif xidmət səviyyələrinə cavab verən yerli çimərlik turizmi on illiklər ərzində inkişaf edib. Bu gün Abşerondakı kurortlar müxtəlif kurort təcrübələrini təcəssüm etdirən əhəmiyyətli turistik ərazilərdən birinə çevrilib. Bu kurortlar qonaqlara və turistlərə rahat və sakit istirahət imkanı verən cəlbedici landşaft elementləri, habelə mağazalar, restoranlar, təmiz su, kölgəliklər və s. ilə təmin olunub. Kurortların su əyləncə parkları, tarixi yerlər və abidələr, alış-veriş yerləri (sənətkarlıq məmulatlarının hazırlandığı emalatxanalar) olan kiçik kənd mərkəzlərinə, habelə kafe və restoranlara yaxın olması buranın turizm cəlbediciliyini artırır. Baş planda ətraf mühitin yaxşılaşdırılması tədbirlərinin nəzərdə tutulması ilə su hövzələrinin keyfiyyətinin artırılması və bununla şəhərin çimərlik turizminə müsbət təsirin göstərilməsi planlaşdırılır.

”Bundan əlavə, nəqliyyat şəbəkəsinin təkmilləşdirilməsi çimərlik ərazilərindən Bakının digər əhəmiyyətli turistik məkanlarına fərdi ekskursiyaların təşkil edilməsinə imkan verəcək”, - sənəddə deyilir.

# Bakıya qar yağacaq

***Bakıda və Abşeron yarımadasında yanvarın 13-ü axşamdan 15-dək bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. SİA xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov bildirib. Onun sözlərinə görə, dünyada son illərin meteoroloji tədqiqatları göstərir ki, son onilliklərdə qış fəslində soyuq günlərin sayı azalır, isti günlərin sayı isə artır:***



“Ölkəmizdə şaxtalı, qarlı günlərin sayının azalması, qışın daha mülayim keçməsi müşahidə olunur. Çoxillik meteoroloji muşahidələrə görə son 10 ildə yanvar ayında havanın orta aylıq temperaturu iqlim normasından 0.1-2.1 dərəcə yüksək olub. Lakin bəzi illərdə bununla yanaşı, anomal soyuq proseslər də müşahidə olunur. Bir neçə gün davam edən mülayim hava şəraitindən sonra ölkəmizdə qış fəslinə xarakterik, qarlı hava şəraitinin müşahidə olunacağı gözlənilir. Belə ki, yanvarın 10-u şimal və qərb rayonlarından başlayaraq hava şəraitinin dəyişəcəyi, güclü şimal-qərb küləyinin əsəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir”. Xidmət rəisi bildirib ki, yağıntılı hava şəraiti yanvarın 12-si səhərədək fasilələrlə davam edəcək:

# Misirdə 2 minillik məzarlar aşkarlanıb

***İspan arxeoloqları ilk dəfə Misirin Əl-Bəhnas şəhərində qızıl və rəngli cənazə maskaları olan mumiya şəklində təxminən iki minillik məzarlar aşkar ediblər. Bu barədə “Səda əl-Balad” informasiya portalı məlumat yayıb.***

Məlumata görə, ptolemeylər sülaləsinin (e.ə. 305-30-cu illər) və Misir üzərində Roma hakimiyyəti dövründə dəfn edilmiş 23 mumiya aşkar edilib. Məzarlar Əl-Bəhnas şəhərinin yuxarı qəbiristanlığının şərq hissəsində aşkarlanıb. Ərazidə qazılmış və daşla örtülmüş quyuda ölüləri dəfn etmək üçün otaqlar vardır. Bu otaqların birində sarkofaqlar (qədim xalqlarda daş tabut),



o cümlədən insan şəklində olanlar, digərində isə mumiyaların özləri var. Mumiyaların nə üçün sarkofaqdan kənarda basdırıldığı barədə məlumat verilmir. Mumiyalardan ikisinin ağzında dil formalı qızıl boşqab var.

# “Qalatasaray” bu nəticə ilə Superliqada tək komandadır



“Qalatasaray” daha bir nəticəyə imza atıb. Belə ki, ”cim-bom” Türkiyə Superliqasında bu mövsüm doğma meydanda xal itirməyən yeganə komanda kimi diqqət mərkəzindədir. İstanbul təmsilçisi “RAMS Park”da keçirdiyi 9 oyunun hamısında meydanı 3 xalla tərk edib. “Sarı-qırmızılılar” uğurlu seriyanı XIX tur çərçivəsində ötən gün “Konyaspor”a 3:0 hesabı ilə qalib gəldikləri matçda da davam etdiriblər.

## ELAN

**Qasımov Vüsal Asif oğluna məxsus şəxsiyyət vəsiqəsi ,sürücülük vəsiqəsi, 90 DX623 avtomobilinin texpasportu və Ədliyyə Nazirliyinin pentesiyar xidmətin Bakı İstintaq Təcridxanasının iş vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2500**